## Yeni kənd təsərrüfatı naziri kollektivə təqdim olunub



**Prezident İlham Əliyevin dünən kənd təsərrüfatı naziri vəzifəsinə təyin etdiyi Məcnun Məmmədov bir qədər əvvəl kollektivə təqdim olunub.**

Təqdimatı dövlət başçısının köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov edib.

O, yeni nazirə işində uğurlar arzulayıb.

## Danimarkanın Türkiyədəki səfiri XİN-ə çağırılıb




**Türkiyə bu gün Danimarkada Qurani-Kərimə və Türk bayrağına qarşı törədilən təhqiramiz hərəkətləri qınayır.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə XİN-nin bəyanatında deyilir.

*Qeyd olunub ki, məsələ ilə bağlı Danimarkanın Türkiyədəki səfiri XİN-ə çağırılıb.*

*Nazirlik bu cür hərəkətlərin həyata keçirilməsinə icazə verməsinin yolverilməz olduğunu vurğulayıb.*


№ 65 (5826) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 aprel 2023-cü il (şənbə)




## Əməliyyat İraqda keçirilib

### FETÖ-nün Azərbaycan strukturunun rəhbəri saxlanılıb

**FETÖ-nün Azərbaycan strukturunun rəhbərlərindən biri olan və təşkilatın maliyyələşməsinin təşkilatçılarından olan Mehmet Cintosun saxlanılması üçün xüsusi əməliyyat İraqda keçirilib.**

Bu haqda TurkicWorld-a Türkiyə diplomatik mənbələrindən bildirilib.

Qeyd olunub ki , Cintosun uzun zaman İraqda olduğu müddətdə də terror təşkilatının digər üzvləri ilə sıx əməkdaşlıq içərisində olduğu müəyyən edilib. Məlumat üçün bildirək ki, bu gün MİT FETÖ terror təşkilatının maliyyələşməsinin təşkilatçılarından olan Mehmet Cintosunu Türkiyəyə gətirilib.

Qeyd edilib ki, M.Cintosun, 1995-2014-cü illərdə FETÖ-nün Azərbaycan strukturunda "rəhbər şəxs" kimi fəaliyyət göstərib.

O, 2014-cü ildə Türkiyəyə qayıdıb və 2016-cı ilin 15 iyulunda baş verən çevrilişə cəhddən sonra Türkiyədən qaçıb.




## İrəvan sülh sazişi üzrə danışıqlara qayıtmalıdır

### Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən çıxarmalı və təxribatçı addımlar atmamalıdır

**Ermənistan əsassız bəyanatlar verməK əvəzinə sülh sazişi üzrə danışıqlara qayıtmalı, açıq ünsiyyət qurmalı, üçtərəfli bəyanatda yer alan öhdəliklərə əməl etməlidir.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə "Twitter"də yazıb. O bildirib ki, Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən çıxarmalı və təxribatçı addımlar atmamalıdır.

## ATƏT etiraz etdi

### "Azərbaycan hərbçilərinə qarşı amansız rəftarın görüntüləri dərin narahatlıq doğurur"




**"Ermənistanda Azərbaycan hərbçisinə qarşı açıq-aşkar amansız rəftarın görüntüləri dərin narahatlıq doğurur".**

Bu barədə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) məlumat yayıb.

ATƏT/DTİHB insidentlə bağlı dərhal araşdırma aparmağa çağırıb: "Bu, günahkarların beynəlxalq hüquq normalarına uyğun olaraq məsuliyyətə cəlb olunmasına kömək edəcək".

Xatırladaq ki, daha əvvəl Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçusuna qarşı işgəncə və qeyri-insani rəftarı pisləməyə çağırıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Babirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib.

# Mayın 1-dən quru sərhədləri açılmayacaq

### Sərhədlərin bağlı qalmasının səbəbini ictimaiyyətə açıqlamaq Operativ Qərargahın borcudur




**Azərbaycanın quru sərhədlərinin açılması məsələsi uzun müddətdir ki, müzakirə mövzusu olaraq qalır. Bununla bağlı dəfələrlə təkliflər irəli sürülsə də, hökumət sərhədləri açmaq niyyətində deyil.**

Halbuki Gürcüstana məxsus teleqram kanalları, xəbər saytları may ayının 1-dən etibarən Azərbaycanla quru sərhədlərin açılacağını yayıb.

Xatırladaq ki, quru sərhədlərin açılacağı ilə bağlı iddialar martın 28-dən gücləndi. Belə ki, həmin tarixdə bəzi məhdudiyyətlər aradan qaldırılıb.

Nazirlər Kabinetinin ölkəmizdə xüsusi karantin rejimində bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə qərarına əsasən, COVİD-19 pasportu tələbi də ləğv edilib. Məhz bu qərardan sonra sərhədlərin açılacağına dair gözləntilər çoxalıb. Qonşu ölkələrdəki doğmalarını görmək istəyən, istirahətə getmək istəyənlər veriləcək qərarı səbirsizliklə gözləyirlər. Lakin hər zamankı kimi Operativ Qərargah susqunluq nümayiş etdirir. Sözügedən məsələ ilə bağlı nə "hə", nə də "yox" deyir. Bu isə haqlı olaraq cəmiyyət arasında narazılıqla qarşılanır.

Ekspertlər isə pandemiya səbəbindən qapadılan sərhədlərin açılmasını iqtisadiyyatın gücləndirilməsi üçün vacib addım hesab edir.

(səh.3)

## Avropa Birliyi Ermənistanla yeni bir ssenari hazırlayıb

### Professor vurğulayıb ki, bu ssenari daha çox Azərbaycanla Rusiyanı üz-üzə qoymağa hesablanıb



**Avropa Birliyi Azərbaycan və Ermənistan arasında şərti sərhəddə gərginliyi azaltmaq üçün qoşunların çıxarılması təklifini etmişdi. Bu təklif Ermənistan tərəfindən müsbət qarşılanıb. Baş nazir Nikol Paşinyan bildirib ki, AB-nin qoşunların Azərbaycanla sərhədin bütün perimetri boyu geri çəkilməsi ilə bağlı təklifi ilə razılaşır.**

Paşinyan deyib ki, onlar 2021-ci ildən qoşunları çıxarmağa hazır olduqlarını bəyan edirlər: "Bu cür hərəkətlər Praqa bəyanatı və Soçideki üçtərəfli bəyanatın əsasında qoyulan məntiqdən irəli gəlir. Biz qoşunları Ermənistan-Azərbaycan 1991-ci il sərhəd xətti boyunca təhlükəsiz məsafəyə çəkməyə hazırıq".

(səh.5)



## Moskva danışıqları baş tutacaq

### Azərbaycan Rusiyanın görüş təklifini geri çevirən xəttə getməyəcək

**"Ermənistan və Azərbaycandan olan tərəfdaşlar Rusiyanın sülh müqavilesi üzrə ikitərəfli danışıqların növbəti raundunun keçirilməsi təklifini qəbul ediblər". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ötən gün açıqlamasında deyib. XİN rəsmisinin sözlərinə görə, razılaşma dəqiqləşəndən sonra görüş tarixi açıqlanacaq.**

Xatırladaq ki, Zaxarovanın məlum açıqlamasından bir neçə gün əvvəl may ayında Vaşinqtonda ABŞ dövlət katibi E.Blinkenin təşəbbüsü ilə görüşün ola biləcəyi barədə məlumatlar yayılmışdı.

(səh.3)

## Yol humanitar məqsədlər üçün açıqdır

### Laçın yolunda sülhməramlıların avtomobil karvanı maneəsiz keçib



**Bu gün Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus avtomobillərinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

"Report"un aksiya keçirilən ərazidəki əməkdaşı xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz hərəkəti təmin olunub.

Belə ki, həm minik, həm də yük maşını olmaqla ümumilikdə 7 nəqliyyat vasitəsi yolun hər iki istiqamətinə hərəkət edib. Bu isə bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır. Bununla da bu gün bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 89-a çatıb.

## Daha 5 qadın dini ayin icraçısı məscidlərə təyinat alıb



**Daha 5 qadın dini ayin icraçısı Saatlı rayonu "Varxan" kənd, Quba şəhəri "Cümə", Siyəzən şəhəri "Cümə", Ağdaş şəhəri "Hacı Məhəmməd" və Zaqatala şəhəri "Cümə" məscidlərinə təyin olunublar.**

Bu barədə "Şərq"ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən bildirilib. Qeyd edilib ki, Komitə tərəfindən 13-15 fevral 2023-cü il tarixində İslam dininə aid ibadət yerlərində qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün keçirilmiş müsahibədə iştirak edən və uğur qazanaraq təyinat almış bir qrup qadın dini ayinlərin icraçıları ilə görüş keçirilib.

(səh.5)




## "Türkiyədə istənilən iqtidar Azərbaycanın yanında olacaq"

CHP-li millət vəkili: "İki ölkənin dostluğu, qardaşlığı heç bir zaman hökumətlərə bağlı olaraq dəyişməyəcək"

(səh.4)



## Əsgərlərimiz əsirlikdən dərhal qaytarılmalıdır

Çingiz Qənizadə: "Ermənistan hərbçilərimizə işgəncə verməklə Cenevrə Konvensiyasının 3-cü maddəsinin tələblərini pozub"

(səh.5)

# Azərbaycan qazı Bosniya və Herseqovinaya nəql olunacaq

## İki ölkə arasında əməkdaşlığın genişləndirilməsi həm də Avropanın enerjiyə tələbatının ödənilməsinə xidmət edəcək



**Azərbaycan Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinaya rəsmi səfəri başa çatıb. Prezidentin səfəri ilə bağlı öncə onu qeyd etmək lazımdır ki, bu səfər Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç dəvəti əsasında baş tutub.**

Xanım Tsviyanoviç fevralın 28-də Azərbaycan Respublikasına səfərə gəlib və səfər zamanı Prezident İlham Əliyevi Bosniya və Herseqovinyaya səfərə dəvət edib. Dövlət başçısının Bosniya və Herseqovinaya rəsmi səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlıq haqqında byannamə imzalanıb.

**Politoloq Turan Rzayev "Şərq"ə bildirib ki, Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında münasibətlər kifayət qədər köklü keçmişə sahibdir. Analitik qeyd edib ki, rəsmi Sarayevo Azərbaycanın müstəqilliyini 9 fevral 1995-ci ildə tanıyıb. Elə həmin gün etibarilə də iki ölkə arasında diplomatik münasibətlər qurulub:** "Azərbaycanın Bosniya və Herseqovinada Diplomatik Nümayəndəliyi 1 mart 2011-ci ildə təsis olunub. İki ölkə tarixində ən diqqətçəkən məqam isə şübhəsiz, 1972-ci ildə hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişinin imzalanmasıdır. Məhz o vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Son illərdə isə Bosniya və Herseqovina ilə Azərbaycan arasında strateji və iqtisadi əlaqələrin dərinləşməsi müşahidə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Bosniya və Herseqovina 44 günlük ikinci Qarabağ müharibəsi zamanı və müharibədən sonra Azərbaycanın mövqeyini açıq şəkildə dəstəkləyib. Rəsmi Sarayevo beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə qəbul edilməyə çalışılan qətnamə və sənədlərə qoşulmadığı kimi əleyhinə də çıxış edir. Bosniya və Herseqovina Azərbaycanda səfirlik açmaq niyyətindədir. Azərbaycanın Bosniya və Herseqovinada səfirliyi fəaliyyət göstərir. Rəsmi Sarayevonun ölkəmizdə səfirlik açmaq qərarına gəlməsi, şübhəsiz, iki ölkə münasibətlərinin inkişafına gətirib çıxaracaq".

*Ekspert vurğulayıb ki, Bosniya və Herseqovina ilə həm enerji, həm də neftdən kənar sektorlar üzrə əməkdaşlıq imkanları var:* "Bosniya və Herseqovina da Azərbaycandan qaz almaq niyyətində olan ölkələrdəndir. Bu, İon-Adriatik kəmərinin TAP-a inteqrasiyası ilə mümkündür. İki ölkə bu istiqamətdə razılığa gəlsə, bu, Azərbaycan qazının Bosniya və Herseqovinaya nəql edilməsi deməkdir. Bu həm də Avropa bazarına əlavə 5 milyard kubmetr qazın nəql edilməsi deməkdir. Çünki İon-Adriatik kəmərinin ötürücülük qabiliyyəti 5 milyard kubmetrdir. Rusiya-Ukrayna müharibəsi fonunda Qərbin enerjiyə olan asılılığını nəzərə alsaq, Bosniya və Herseqovina ilə Azərbaycan arasında bu sahədə əməkdaşlığın genişləndirilməsi həm də Avropanın enerjiyə tələbatının ödənilməsinə xidmət edəcək".

**İsmayıl**



**Azərbaycan XİN Ermənistanı sülh sazişi üzrə danışıqlara geri qayıtmağa çağırıb.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Baş naziri Paşinyanın 13 aprel tarixində hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialarla bağlı şərhində qeyd olunub.

"Ermənistan tərəfindən ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara geri qayıtmağı tələb edirik", - XİN rəsmisi qeyd edib.

# Azərbaycanın yaratdığı reallıq qaçılmazdır

## İrəvan sülhü uzatmaqla heç nəyə nail ola bilməyəcək

**Ermənistan tərəfinin sülh müqaviləsinin imzalamaqdan qaçdığını deyən millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov "Şərq"ə bildirib ki, son zamanlarda həm sərhəddə baş vermiş təxribatlar, həm əsir düşən əsgərlərimizə qarşı işgəncə verilməsi, həm də ölkəmizə qarşı beynəlxalq səviyyədə böhtanlar vaxtın uzadılmasına xidmət edir:** "Ona görə də bilməliyik ki, İrəvanın sülh sazişinə münasibəti qeyri-səmimidir. Ancaq bir məsələ var ki, onu heç kim inkar edə bilməz. Bu, Azərbaycanın yaratdığı reallıqdır. Bu reallığın regionda tətbiq olunması və inkişaf etdirilməsi artıq qaçılmazdır. Çünki bu gün sülh və bölgədəki əmin-amanlıq böyük dövlətlərə daha çox lazımdır, nəinki Ermənistan və havadarlarının müharibə niyyəti. Biz bunu açıq şəkildə gorürük".

Parlamentari qeyd edib ki, ölkə başçısının son səfərləri də bunu sübut edir: "ABŞ və Avropa Birliyi bu gün ölkəmizlə əlaqələr quraraq öz istəklərini Azərbaycanın milli maraqlarını qəbul edərək həyata keçirir. Təbii ki, Azərbaycanın inkişafını istəməyən və əlaqələrini dünya ilə kəsməyə çalışan qüvvələr provokasiyalara əl atacaq".

*Deputat əlavə edib ki, bu təxribatların bir neçə mərhələsi var:* "Birincisi, Ermənistanın müxtəlif bəhanələrlə danışıqlardan qaçmasıdır. İkincisi, sərhəd bölgəsində Azərbaycan Ordusuna və vətəndaşlarına qarşı müxtəlif təxribatlar törətməkdir. Üçüncüsü isə onların havadarları vasitəsilə beynəlxalq səviyyədə Azərbaycana qarşı çirkin kampaniyanın aparılmasıdır. Onların bugünkü siyasəti və Azərbaycanın açıq mövqeyi sanki qarşı-qarşıya gəlib. Ancaq qüvvət nisbəti bizim xeyrimizədir.

Çünki Azərbaycan haqq-ədalət və beynəlxalq qanun səviyyəsində davranış sərgiləyir. Əminəm ki, ölkəmizin təklif etdiyi gündəlik get-gedə daha yüksək səviyyədə qəbul ediləcək".

**Nihat Müzəffər**

# Sahibə Qafarova erməni spikerin yalanlarını ifşa edib

## Milli Məclisin sədri çıxışında Ermənistanın hərbi-siyasi təxribatları barədə geniş məlumat verib



**Milli Məclisin sədri Sahibə Qafarova Rusiyada keçirilən MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasının yekunlarına həsr olunmuş brifinqdə Ermənistan parlamenti sədrinin ölkəmiz haqqında yalan və əsassız iddialarına cavab verib.**

Spiker bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı zamanı meşələrimizi və qoruqlarımızı məhv edən, təbii sərvətlərimizi qanunsuz istismar edən, torpaq və çayları çirkləndirən bir ölkənin nümayəndəsi kimi Ermənistan parlamenti sədrinin Azərbaycanın suveren ərazilərində hər hansı "ekoloji narahatlıqlar" barədə danışmağa mənəvi haqqı yoxdur. Parlament sədri qeyd edib ki, Ermənistan tərəfi, nədənsə, Beynəlxalq Məhkəmənin əsassız saydığı və Ermənistanın Azərbaycan hökuməti tərəfindən Laçın yolunda etirazların təşkili və dəstəklənməsinə dair iddialarını tamamilə rədd etdiyi barədə susur. Məhkəmənin qərarı həmçinin Laçın yolundan qeyri-qanuni hərbi və iqtisadi məqsədlər üçün istifadənin yolverilməzliyi ilə bağlı Azərbaycanın mövqeyi ilə də uyğundur. Sahibə Qafarova deyib ki, Azərbaycanın erməni vətəndaşlarına qarşı hansısa "terror" iddialarının absurdluğu ondan ibarətdir ki, bu iddialar 30 illik işğal dövründə etnik təmizləmə və kütləvi qətllər törətmiş, 1 milyona yaxın azərbaycanlını öz doğma yurdlarından zorla qovaraq, Azərbaycana məxsus bütün tarixi və dini abidələri vəhşicəsinə məhv edən bir ölkənin nümayəndəsi tərəfindən irəli sürülür: "Azərbaycanın Ermənistanın suveren ərazisini işğal etməsi ilə bağlı iddialar tamamilə əsassızdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini 30 il işğal altında saxlamış və Qazax rayonunun 7 kəndini və Naxçıvanın Kərki kəndini hələ də işğal altında saxlayan ölkə olaraq Ermənistan danışıqlar masasına qayıtmalıdır. Sülh müqaviləsi, eləcə də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzərində işi davam etdirməlidir".

Milli Məclisin sədri çıxışında Ermənistanın hərbi-siyasi təxribatları barədə geniş məlumat verib: "Ermənistanın Avropa İttifaqının missiyasının bu ölkədə olmasından sui-istifadə etməsi və vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürütməsi aydın müşahidə olunur. Ermənistan Silahlı Qüvvələri və qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ərazilərində atəşkəs rejimini pozmaqda davam edir ki, bu da insan təlefatına səbəb olur".

Sahibə Qafarova həmçinin diqqətə çatdırıb ki, Ermənistan tərəfindən basdırılan və sayı bir milyondan çox olan minalar hələ də bərpa işlərində ən böyük problemlərdən biridir: "Vətən müharibəsindən sonrakı iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı minaya düşərək həlak olub və ya ağır yaralanıb. Dəfələrlə tələb olunmasına baxmayaraq, Ermənistan indiyədək minalanmış ərazilərin dəqiq xəritələrini ölkəmizə təqdim etməyib".

**İsmayıl**



# "Milli əxlaqı, dəyərləri sıradan çıxarırlar"

## Deputatlar televiziyaları sərt tənqid edib

**Dünən Milli Məclisdə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi müzakirə olunub. Məsələ Parlamentin Mədəniyyət Komitəsində müzakirəyə çıxarılıb. Qeyd edək ki, Mətbuat Şurası tanınmış jurnalistlər - Azər Həsrət və Aqil Ələsgərin Yayım Şurasının üzvlüyünə namizədliyini irəli sürüb. Müzakirələrdə iştirak edən deputatlar televiziya sahəsindəki problemlərdən də danışıblar.**

Vətəndaş Həmrəyliyi Partiyasının sədri, deputat Sabir Rüstəmxanlı söyləyib ki, bu gün bəzən televiziya kanalları cəmiyyətin dağılması, parçalanması, milli əxlaqın, dəyərlərin sıradan çıxmasında mənfi rol oyanır.

O bildirib ki, televiziyalar müəyyən qədər ölkənin rəsmi və ideoloji sisteminin keşiyində dayanmağa çalışsalar da, efirdə şou proqramlar üstünlük təşkil edir və bu da narahatlıq doğurur: "Bu baxımından İTV özünü nisbətən qoruya bilir".

**S.Rüstəmxanlı eyni zamanda bir çox təşkilatlarda ictimai şuraların yaratmaq dəbindən də danışıb:** "Amma təəssüf ki, bunun çoxu söz olaraq qalır. Yəni ictimai şuranın rəyi ya nəzərə alınmır, ya da rəyləri əsassız olduğundan fikir verilmir. İctimai şuraların nə üçün yaradılması məsələsi parlament səviyyəsində müzakirə olunmalıdır. İTV-nin Yayım Şurasına seçiləcək namizədlər rəylərinin diqqətə alınması məsələsinə önəm verməlidirlər. Müəyyən verilişlərlə bağlı fikirləri olduğu təqdirdə televiziya rəhbərlərinə qəbul etdirməyə çalışmalıdırlar".

### "Televiziya kanallarında klassik dəyərlərin təbliği məsələsində boşluq var"

**Millət vəkili, professor Nizami Cəfərov bildirib ki, televiziya kanallarında əyləncə və əyləndirmə mexanizmi var:** "Amma bir az klassika, klassik dəyərlərin təbliği məsələsində boşluq var. Bu baxımdan, Azərbaycan klassik ədəbiyyatının ən yaxşı bilicisi olan Teymur Kərimlinin yayım şurasında olması yaxşı haldır. Buna ehtiyac var". Deputat ictimai şuraların televiziyalarda özünü doğrultmadığını diqqətə çatdırıb: "Hər dəfə bunlar yaradılır, amma effekt vermir. Yayım şurası birbaşa televiziyanın özü deməkdir. Televiziyaya qoyulan rəhbər və onun işçiləri efirə daha çox təsir edirlər. Ona görə də bəzən şuralar dışlanır, nəticədə mərkəzi rəhbərlər qalır kənarda".

**Nizami Cəfərov qeyd edib ki, hələ də normal orfoepiya lüğətimiz yoxdur:** "Külli miqdarda problemli ifadələrimiz var ki, onları necə səsləndirmək lazım olduğunu bilmirik. Məhz televiziyalarımız bu yöndə məktəb olmalıdır".

**Nizami Cəfərov eyni zamanda deyib ki, teleseriallar qədər xalqımıza təsir edən ikinci bir sənət yoxdur:**

"Yaxşı teleseriallar olmadıqca xalqın nitqi keyfiyyətli formaya düşməyəcək. Elə aktyorlar var ki, danışa bilmir. Aktyor, aktrisa yaraşıqlı, gözəl ola bilər, bu bir cəhətdir, amma danışıq da, nitq də peşəkar olmalıdır. Bəzən görünüş, gözəllik olur, amma nitq kələ-kötür olur. Niyə? Çünki bu adamlar ömründə cəmi 3 kitab oxuyublar".

### "Güneyli soydaşlarımız efirlərdə Azərbaycan dilini öyrədən verilişlərin olmasını istəyir"

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, ABŞ-də güneyli soydaşlarımız məndən xahiş edirdi ki, Azərbaycan dilini öyrədən verilişlər olsun:** "Güney Azərbaycandan olan ziyalılarımızın ən çox vurğuladığı məsələ odur ki, onların, yəni güneylilərin folkloru ilə bağlı bilgimiz azdır. Onların çox böyük yaradıcılığı var, bu yöndə layihələr, proqramlar, verilişlər hazırlanmalıdır. Çünki bu insanlar bütövlükdə Azərbaycan ədəbiyyatına xidmət edirlər. Yaxud Borçalı olsun, Dağıstan, Dərbənd olsun, Qərbi Azərbaycan olsun, fərqi yoxdur, orada yaranan ədəbiyyat Azərbaycan ədəbiyyatına xidmət deməkdir. O şəxslərin, o ədəbiyyatın efirlərdə təbliğatı vacibdir". Deputat Qərbi Azərbaycanla bağlı verilişlərin vacibliyini də vurğulayıb: "Qərbi Azərbaycanda olan folkloru, tarixi şəxsiyyətləri, mədəni-tarixi abidələri və digər bu kimi yöndə olan anlayışları özündə əks etdirən proqramlar çoxaldılmalıdır. Ən əsası isə vahid tariximiz barədə doğru, ardıcıl formada verilişlər hazırlanmalıdır".

### Parlamentin şöbə müdiri "Əqrəb mövsümü"nü tənqid edib

**Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, qəbul edilən qanunların tətbiqi ilə bağlı televiziya kanallarında hələ də problemlər qalır:** "Televiziya məkanında audiovizual əsərlərdə, tamaşalarda, ümumiyyətlə, bütün verilişlərdə tütündən istifadə birbaşa qadağandır. Bu gün nə baş verir? Bu maddə yerinə yetirilmir, işləmir. Yalnız xəbərdaredici cümlə verilir və bu da effekt vermir. Seriallarda yenidən tütündən istifadəyə icazə verilib. Tütündən istifadə o serialların reytinqinə müsbət təsir göstərmir. Bu yaxınlarda İctimai Televiziyada müsbət mənada rezonansa səbəb olan "Əqrəb mövsümü" yayımlandı. Orada aktyor oyunu, rejissor işi əla idi, amma tütündən istifadə kuliminasiya həddinə çatmışdı. Bu seriallara gənclər, yeniyetmələr də baxırlar. Belə məsələlər nəzarətdə saxlanılmalıdır".

**İsmayıl**

# Zaxarovanın açıqlaması Ermənistan tərəfinə haqq qazandırır

## "Belə ki, hər iki tərəfin günahsızlığını sübut etmək üçün hadisə Qərbin üzərinə atılır"



**"Digər strukturların müdaxiləsi sabitliyin pozulmasına gətirib çıxaracaq".**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova "News.ru" saytının jurnalisti Sona Rüstəmovanın aprelin 11-də Ermənistan və Azərbaycan hərbçiləri arasında baş verən insidentlə bağlı sualını cavablandırarkən bildirib.

Zaxarova qeyd edib ki, atışma Qərbin müdaxiləsi nəticəsində baş verib.

"Uzun müddətdir davam edən bu məsələnin həlli ilə heç vaxt məşğul olmayan digər oyunçuların və ya strukturların oraya daxil olması nəzərdə tutulan effekti verməyəcək - sülhün əldə edilməsi təmin edilməyəcək. Bu, təəssüf ki, gərginləşməyə, sabitliyin pozulmasına gətirib çıxaracaq", - deyə Zaxarova vurğulayıb.

**Məsələyə münasibət bildirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, atışmanın niyə indi baş verməsi onun üçün hələ də anlaşılan deyil:** "Digər beynəlxalq qurumlar məsuliyyətli tərəf barəsində fikir bildirməyib. Zaxarovanın açıqlaması isə iki tərəfin də üzərindən məsuliyyəti atmağa cəhd kimi görünür. Yəni hadisə Ermənistan tərəfinin günahı ucbatından baş verib. Lakin bu qeyd edilməyib.

Bu baxımdan açıqlamada bir şəkildə Ermənistan tərəfinə haqq qazandırılıb. Ümumiyyətlə, hər iki tərəfin günahsızlığını sübut etmək üçün hadisə Qərbin üzərinə atılır".

**Nihat Müzəffər**

# Mayın 1-dən quru sərhədləri açılmayacaq

## Sərhədlərin bağlı qalmasının səbəbini ictimaiyyətə açıqlamaq Operativ Qərargahın borcudur




***"Bəlkə, doğrudan da, bizim bilmədiyimiz ciddi bir səbəb var. Detallı olmasa da, ümumi şəkildə "məhz bu məsələyə görə sərhədləri aça bilmirik", deyə bilərlər"***

**Azərbaycanın quru sərhədlərinin açılması məsələsi uzun müddətdir ki, müzakirə mövzusu olaraq qalır. Bununla bağlı dəfələrlə təkliflər irəli sürülsə də, hökumət sərhədləri açmaq niyyətində deyil.**

Halbuki Gürcüstana məxsus teleqram kanalları, xəbər saytları may ayının 1-dən etibarən Azərbaycanla quru sərhədlərin açılacağını yayıb.

Xatırladaq ki, quru sərhədlərin açılacağı ilə bağlı iddialar martın 28-dən güclənib. Belə ki, həmin tarixdə bəzi məhdudiyyətlər aradan qaldırılıb.

Nazirlər Kabinetinin ölkəmizdə xüsusi karantin rejimində bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə qərarına əsasən, COVİD-19 pasportu tələbi də ləğv edilib. Məhz bu qərardan sonra sərhədlərin açılacağına dair gözləntilər çoxalıb. Qonşu ölkələrdəki doğmalarını görmək istəyən, istirahətə getmək istəyənlər veriləcək qərarı səbirsizliklə gözləyirlər. Lakin hər zamankı kimi Operativ Qərargah susqunluq nümayiş etdirir. Sözügedən məsələ ilə bağlı nə "hə", nə də "yox" deyir. Bu isə haqlı olaraq cəmiyyət arasında narazılıqla qarşılanır.

Ekspertlər isə pandemiya səbəbindən qapadılan sərhədlərin açılmasını iqtisadiyyatın gücləndirilməsi üçün vacib addım hesab edir. Eyni zamanda qabaqdan gələn yay mövsümündə ölkədə turizmin dirçəldilməsində sərhəd qadağasının götürülməsinin böyük rol oynayacağı bildirilir.

**İqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, quru sərhədlərinin hələ də bağlı qalmasının nə tibbi, nə iqtisadi, nə də təhlükəsizlik baxımından mənqiti izahı var. Onun sözlərinə görə, sərhədlərin 3 ildən artıq müddətdə bağlı qalması bir çox sahələrdə çox ciddi zərər yaradır:** "İnsanları dövlətdən narazı salır, sosial ədalətsizliyə zəmin yaradır, iqtisadiyyata, ən çox turizm sektoruna zərər verir. Bu məsələ dəfələrlə ictimai müzakirəyə səbəb olsa da, hələ də əsaslı bir səbəb göstərən yoxdur. Guya quru sərhədlərin açılması ilə bağlı Operativ Qərargah tərəfindən mövcud epidemioloji vəziyyətə uyğun olaraq qərarlar qəbul olunur. OP isə özünü elə aparır ki, sanki bu məsələnin onlara heç bir aidiyyəti yoxdur. Sərhədlərin açılması ilə bağlı qərar vermək bir yana qalsın, əziyyət çəkib insanlara bağlı qalma səbəbini izah belə etmirlər. Azərbaycan-Gürcüstan sərhədinin bağlı qalmasının pandemiya ilə bağlı olmadığını hər kəs bilir. Əvvəl heç olmasa bu səbəbə gülürdük, indi artıq gülməli belə deyil. Dünya ölkələri karantin rejimini çoxdan ləğv edib. COVİD 19-la bağlı ən sərt tədbirlər Çində idi. Yanvar ayından onlar da bütün qadağaları ləğv edib, quru sərhədləri açıblar. Hesab edirəm ki, sərhədlərin bağlı qalma səbəbini ictimaiyətə açıqlamaq rəsmi orqanların borcudur. Bəlkə, doğrudan da, bizim bilmədiyimiz ciddi bir səbəb var. Detallı olmasa da, ümumi şəkildə məhz bu məsələyə görə sərhədləri aça bilmirik, deyə bilərlər. Məsələnin kökündə təhlükəsizlik dayanırsa, bu da məntiqli səbəb deyil. Bu dövlətin təhlükəsizlik, hüquq-mühafizə orqanları istənilən risk və təxribatın qarşısını almağa qadirdir. Sərhədləri bağlamaq təhlükəsizlik tədbiri deyil. Hökumət niyə bu qədər israr edir, heç cür anlaya bilmirəm. Əgər səbəb ölkədə fəaliyyət göstərən beşulduzlu hotellərin və AZAL-ın gəlirini artırmaqdırsa, bu sahədə də heç bir inkişaf yoxdur".

Ekspertin sözlərinə görə, səbəb hər nə olur-olsun, quru sərhədlərinin 3 ildən artıq bir müddətdə bağlı qalması vətəndaşların konstitusion hüquqlarının pozulmasıdır. Ölkə qanunlarına görə, hər bir vətəndaşın sərbəst səhayət etmək hüququ var.

**Məsələ ilə bağlı "modern.az"a danışan Milli Məclisin deputatı Kamran Bayramov isə bildirib ki, indidən sərhədin açılıb-açılmayacağını demək çətindir:** "Vaxtilə pandemiyanın qarşısının alınması məqsədilə görülən tədbirlər çərçivəsində quru sərhədləri bağlanmışdı. İndi isə vəziyyət dəyişib. Yəqin ki, burada digər məsələlər də var. İndi hərə bir söz deyir. Bəziləri deyir ki, sərhədlər açılacaq. Ancaq mən bunu deyə bilmərəm. Çünki bu barədə Operativ Qərargahın rəsmi qərarı olmalıdır. Çox güman ki, məsləhətləşmələr aparılmalıdır. Buna görə də indidən quru sərhədlərinin mayın 1-də, iyulun 1-də, yaxud avqustun birində açılacağını demək uyğun olmaz. Hazırda bununla bağlı rəsmi qərar yoxdur. Bildiyim qədəri ilə bu istiqamətdə müzakirələr də aparılmır".

**Deputatın fikrincə, quru sərhədlərinin bağlı qalmasına təhlükəsizlik məsələləri səbəb ola bilər:** "Pandemiya artıq bitmək üzrədir. Doğrudur, bizdə karantin rejimi qüvvədədir. Müəyyən məhdudiyyətlər aradan qaldırılıb. Quru sərhədlərinin açılması ilə bağlı müzakirələr getmir, təhlillər aparılmır. Quru sərhədlərinin hələ də bağlı qalmasını ölkənin təhlükəsizliyi ilə bağlamaq olar. Belə baxanda başqa səbəb yoxdur.

İndi biz qonşu Ermənistanla, demək olar ki, müharibə şəraitindəyik. Əlaqələrin normallaşması prosesi hələ müzakirə mərhələsindədir. Sülh danışıqları gedir. Sülh müqaviləsinin imzalanması üzrə görüşlər təşkil edilir. Eyni zamanda demarkasiya, delimitasiya prosesi getməlidir. Amma Ermənistanın təxribatları göstərir ki, bizim təhlükəsizliyimizə hələ də təhdidlər var. Bizə qarşı təhlükə təkcə Ermənistandan gəlmir. Burada müəyyən qüvvələr var ki, quru sərhədlər vasitəsilə təhlükəsizliyimizə qarşı təxribat törətməyə cəhd göstərə bilərlər. Sərhədlərin bağlı qalması bununla bağlana bilər".

**Şəymən Bayramova**

# Moskva danışıqları baş tutacaq

## Azərbaycan Rusiyanın görüş təklifini geri çevirən xəttə getməyəcək



***"Brüsseldən öncə görüş Kremlin təyin etdiyi məkanda keçiriləcək. Hərçənd ki, Paşinyan bu görüşdən son anda imtina edə bilər"***

**"Ermənistan və Azərbaycandan olan tərəfdaşlar Rusiyanın sülh müqaviləsi üzrə ikitərəfli danışıqların növbəti raundunun keçirilməsi təklifini qəbul ediblər". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ötən gün açıqlamasında deyib. XİN rəsmisinin sözlərinə görə, razılaşma dəqiqləşəndən sonra görüş tarixi açıqlanacaq.**

Xatırladaq ki, Zaxarovanın məlum açıqlamasından bir neçə gün əvvəl may ayında Vaşinqtonda ABŞ dövlət katibi E.Blinkenin təşəbbüsü ilə görüşün ola biləcəyi barədə məlumatlar yayılmışdı.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, danışıqlarda həlledici üstünlük qazanmaq istəyən münsiflər Qərbdə daha çoxdur. Rusiya isə bu məsələdə, demək olar ki, təkdir. Yəni danışıqların təkbaşına moderatoru və çoxtərəfli vektorla vasitəçilik uğrunda mübarizə gedir:** "Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın müzakirələrinin növbəti raundunu təşkil etmək üçün mübarizənin yenidən qızışması diqqət çəkir. Bir tərəfdən, ABŞ Avropa İttifaqına təkid edir ki, görüş Brüsseldə keçirilsin. Digər yandan, aşkar şəkildə özünü mərkəzdə tutur. Başqa tərəfdən də Rusiya növbəti danışıqların vasitəçisi olmağa çalışır. Hələlik Rusiya yenidən təşəbbüsü ələ almış kimi görünür. Artıq Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Əliyev-Paşinyan görüşünün razılaşdırıldığı barədə açıqlama verib. Azərbaycan-Ermənistan sərhədindəki sonuncu insidentdən sonra Bakı ilə İrəvan arasındakı sülh gündəliyinin proqnozlaşdırıla bilən praqmatik xətlər üzrə davam etməsi çətinləşib. Çətinliyi danışıqların keçiriləcəyi məkanlarla bağlı tərəddüdlər də müşayiət edir. İndi Azərbaycanda da, Ermənistanda da bu fikir hakimdir. İnsidentdən sonra ilk görüş Brüsseldə olsun, yoxsa Moskvada?".

Analitikin sözlərinə görə, Azərbaycan üçün məkan seçimi mahiyyət baxımından elə də böyük əhəmiyyət kəsb etmir: "Çünki bu zamanadək olan görüşlər və onun davamı kimi cərəyan edən proseslərdə Bakı şərtlərinin miqyasını böyüdüb. Ermənistan isə hər dəfə fərqli bəyanatlar səsləndirir. Gah nala, gah mıxa vurur və özünü də, regionun təhlükəsizlik arxitekturasını da qeyri-müəyyənliyə doğru itələyir. Azərbaycan üçün Rusiya mərkəzli danışıqlar ona görə yaxşıdır ki, 10 noyabr bəyanatının icrası ilə bağlı Moskvanı tələsdirsin və yeni şərtlərin formalaşdırılmasını tezləşdirsin. Brüssel mərkəzli danışıqlarda isə Bakının marağını belə təsvir etmək olar ki, o, texniki və humanitar məsələlərin həlli üçün fərqli baxışlara nəzər salsın. Ermənistana gəlincə, o, fərqli düşüncədədir. İrəvan Moskvadan qaçır. Ara-sıra Brüssel orbitindən də yayınır. Beləcə vaxt qazanmağa çalışır. Avropa İttifaqı başqasının dili ilə deyil, sırf özünün məntiqindən çıxış edərsə, sülh müqaviləsinin mümkün imzalanması üçün daha əlverişli mühit yarada, zəruri mexanizmlər formalaşdıra bilər".

**A.Kərimov qeyd edib ki, İttifaq Ermənistana missiya göndərəndən sonra vəziyyət qəlizləşdi:** "Rusiyanın əsəbləri tarıma çəkildi və regional təhlükəsizlik atmosferi çirklənməyə başladı. İstənilən vəziyyətdə yaxşı bir haldır ki, danışıqların yolu qapanmayıb. Kanalları açıq tutmaq üçün Rusiya da, Qərb də öz rollarına regionda cərəyan edən proseslər və onun mümkün nəticələri fonunda yenidən baxırlar. Görünən budur ki, ABŞ ilə Avropa İttifaqı paralel şəkildə Azərbaycan-Ermənistan sülh sazişinin əldə olunmasına vasitəçilik etmək səylərində israrlı olduqları müddətdə Rusiya buna passiv qalmayacaq.

Azərbaycana emosiyalardakı odalovu soyutmaq lazımdır, çünki regionda fərqli və yeni təhdidlər mövcuddur. Buna görə də düşünmək olar ki, Azərbaycan Rusiyanın görüş təklifini geri çevirən xəttə getməyəcək. Brüsseldən öncə görüş Kremlin təyin etdiyi məkanda keçiriləcək. Hərçənd ki, Paşinyan bu görüşdən son anda imtina edə bilər. Avropa İttifaqı Azərbaycanın sərhəddəki mümkün hərbi əməliyyatlarında əngəlləyici faktor kimi qalmaq istəyəcək. İnandırıcı deyil ki, bu, Brüssel formatından Azərbaycanın tamamilə imtina etməsi həddinə çatsın".

**İsmayıl Qocayev**

**"Nikol Paşinyan hökumət iclasındakı çıxışında söylədiyi fikirlərində səmimi deyil. Ermənistan sərhədlərdən qarşılıqlı şəkildə qoşunları geri çəkmək deyəndə, sentyabr və may aylarında itirdikləri yüksəklikləri, mövqeləri nəzərdə tutur. Bir sözlə, Ermənistanın Azərbaycan torpaqlarına ərazi iddiası davam edir.**



# Bakı ordunun geri çəkilməsinə razılıq verməyəcək

## "Ermənistanda yaranan geosiyasi vakuumu Qərb yox, İran doldurur, Aİ bundan narazıdır"

Həmçinin Ermənistanın ərazisində yerləşən 8 kənd Azərbaycana məxsusdur. Onlar rəsmi şəkildə həmin kəndləri qaytarmağa razı olmadıqlarını deyiblər. Bu baxımdan Azərbaycanın geri çəkilməsi onlara sərf edir".

**Bunu "Şərq"ə Ermənistanın Baş naziri Nikol Paşinyan aprelin 13-də hökumətin iclasında "qoşunları Azərbaycanla sərhəddən geri çəkməyə hazırıq" fikrinə münasibət bildirərkən siyasi şərhçi Elşən Məcidov deyib.** O qeyd edib ki, ordumuzun sentyabr döyüşləri zamanı əldə etdiyi yüksəkliklər nəticəsində Ermənistanın 30 faiz ərazisinə nəzarət mümkündür: "Paşinyan mütəmadi belə təkliflər irəli sürür, lakin rəsmi Bakı razılıq verməyəcək.

Ordumuz Zəngilan sərhədinə çatanda ruslardan sərhəddə dayanmaqlarını xahiş etmişdilər. Ruslar gələndən sonra yenə atəş açırdılar ki, adekvat cavab verəndə həmin hərbçilər hədəfə çevrilsin. İstəkləri Rusiyanın Azərbaycana qarşı qalxması idi.

Sülhməramlılar Qarabağa daxil olanda da toqquşma yaratmaqdan ötrü ermənilər təxribatlar törətdilər.

ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi İrəvana səfərindən əvvəl təxribata əl atmışdılar. ABŞ-ni əleyhimizə çıxarmaq niyyətində idilər.

Sərhəddə baş verən son toqquşma da Ermənistanın uzun separatçı siyasətinin bir hissəsidir. İndi isə İran və Avropa İttifaqını (Aİ) Azərbaycana qarşı çevirmək istəyir. Fransa əleyhimizə bəyanat qəbul etdi, lakin Ermənistanın gözlədiyi reaksiya olmadı. Çünki Aİ Ermənistanın şəraitdən sui-istifadə etdiyini yaxşı başa düşür. Mövcud boşluqdan İran da yararlanmağa çalışır. Ermənistanda yaranan geosiyasi vakuumu Qərb yox, İran doldurur. Aİ bundan narazıdır".

Qeyd edək ki, Nikol Paşinyan parlamentdə "Hökumət saatı" zamanı çıxışında Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını da vurğulayıb.

**Aygün Tahir**

# Siyasət davam edəcək

## Türkiyə böyük iqtisadi gücə sahib ölkələr sırasındadır



Beynəlxalq valyuta fondunun təsnifatına görə, Türkiyə inkişaf etməkdə olan ölkədir. İnkişaf etmiş ölkələrin siyahısına baxsaq, görərik ki, Avropa Birliyinə daxil olan ölkələrin bir qismi məhz burada yox, Türkiyənin olduğu siyahıda yer alıb. Türkiyənin yaxın bir neçə ildə inkişaf etmiş ölkələrin siyahısında olacağı labüddür. Çünki qardaş ölkə artıq qlobal siyasətə təsir edən, münaqişələrin həllində mövqe ortaya qoyan dövlətə çevrilib. Bu gün Türkiyə öz regionunda eyni zamanda dünyada söz sahibi olan ölkələrdəndir. Qeyd edək ki, qardaş ölkənin Prezidenti Ərdoğanın Ədalət və İnkişaf Partiyasının seçkilərdəki uğurları uzun müddət iqtisadiyyatdakı yaxşı göstəricilərlə izah olunub. Yəni Ərdoğanın rəhbərliyi ilə ötən illər ərzində Türkiyənin dünyadakı həm siyasi, həm iqtisadi, həm də hərbi gücü sürətlə artıb. Hətta Ərdoğan özü də Türkiyə mediasına verdiyi açıqlamalarda ölkə iqtisadiyyatını gücləndirmək üçün ciddi işlər gördüklərini deyib. Türkiyə iqtisadiyyatının ötən il 5,6 faiz artdığını xatırladan Ərdoğan Türkiyənin "G20" ölkələri arasında ən sürətlə böyüyən ölkələrdən birinə çevrildiyini də deyib. Son 10 ildə Türkiyə iqtisadiyyatının fasiləsiz böyüdüyünü iddia edən Ərdoğan əlavə edib ki, ölkənin avtomobil və avadanlıq sərmayələri fasiləsiz olaraq böyüməyə davam edir.

***Ekspertin sözlərinə görə, son 10 ildə Türkiyə həm hərbi sənayedə, həm də avtomobil sənayesində böyük uğurlar əldə edib***

**Qardaş ölkənin iqtisadiyyatını dəyərləndirən iqtisadçı-ekspert Eldəniz Əmirov da Türkiyənin böyük iqtisadi gücə sahib ölkələr sırasında yer aldığını təsdiqləyib. O, xüsusən də son dönəmlər Türkiyə iqtisadiyyatında ciddi artım müşahidə edildiyini deyib:** "Düzdür, zaman-zaman hökumətin yeritdiyi xarici siyasət daxili iqtisadiyyatın artım tempinə mənfi təsir edib. Bu isə müvəqqəti xarakter daşıyıb. Hesab edirəm ki, ortamüddətli dövr üçün uğurlu xarici siyasət daxili iqtisadi inkişafa təkan verəcək. Hazırda Türkiyənin ticarət dövriyyəsində ciddi artımlar var. Təkcə ötən il ixrac dövriyyəsi13 faizə qədər artaraq 254 milyard dollara çatmışdı. ÜDM isə 6,2 faiz artıb. Bu da kifayət qədər böyük göstəricidir. Beynəlxalq qurumların proqnozlarına görə, Türkiyənin Ümum Daxili Məhsulu (ÜDM) bir trilyon dolları keçəcək. Bu isə Türkiyənin trilyonluq ÜDM-yə sahib olan ölkələr siyahısına düşməsi deməkdir. Türkiyənin dönməz xarici siyasəti rəqiblərini qıcıqlandırır və onlar da komanda şəklində Türkiyə iqtisadiyyatı üçün müəyyən əngəllər yaratmağa çalışırlar. Lakin bu əngəllər nə Türkiyənin iqtisadiyyatını çökdürə, nə də ticarətini zəiflədə bilir. Türkiyə hökuməti elə strategiya qurub ki, istənilən iqtisadi böhranları asanlıqla keçə bilir. Hətta Aralıq Dənizində Yunanıstana heç bir güzəştə getməməsi, oradakı karbogen ehtiyatlarının Türkiyə tərəfindən istismar olunması gələcəkdə ölkənin qərbə karbogen ixrac etməsinə zəmin yaradır. Hazırkı uğurlu xarici siyasət qarşıdakı dönəmdə Türkiyə üçün çox böyük imkanlar yaradır".

**Ekspertin sözlərinə görə, son 10 ildə Türkiyə həm hərbi sənayedə, həm də avtomobil sənayesində böyük uğurlar əldə edib. Bu isə olduqca böyük nəticədir, Türkiyənin iqtisadi inkişafının göstəricisidir:** "Bu gün Türkiyə istehsalı olan pilotsuz uçuş aparatları bütün dünyanın diqqət mərkəzindədir. Hətta Azərbaycan-Ermənistan arasındakı ikinci Qarabağ müharibəsindən sonra Türkiyə hərbi sənayesində çox güclü sıçrayışlar gözlənilir. Müharibə zamanı dronların nümayiş etdirdiyi fantastik epizodlar Türkiyənin hərbi sənayesinin ən gözəl reklamı oldu. Heç bir reklam şirkəti ortaya bu cür möhtəşəm kadrlar çıxara bilməzdi. Müharibədən sonra çox ciddi sifarişlər aldılar ki, bu da hərb sənayesi üçün son dərəcə böyük uğurdur. Qardaş ölkə dronlardan sonra qırıcı təyyarələr və avtomobil istehsalı ilə dünyanın gündəmində yer aldı. Türkiyə yeni nəsil avtomobillərin istehsalı ilə bazarda mövqeyini formalaşdıracaq. Bu da Türkiyənin dayanıqlı iqtisadiyyatı üçün yaxşı imkanlar, ölkənin iqtisadiyyatının güclənməsi deməkdir. Bu isə o deməkdir ki, kənd təsərrüfatı kimi tanınan Türkiyə artıq sənaye ölkəsinə çevrilib".

**Şəymən Bayramova**

# "Türkiyədə istənilən iqtidar Azərbaycanın yanında olacaq"

## CHP-li millət vəkili: "İki ölkənin dostluğu, qardaşlığı heç bir zaman hökümətlərə bağlı olaraq dəyişməyəcək"



**Türkiyəli siyasətçi, hüquqşünas, hazırda CHP-nin İstanbul üzrə bölgə namizədi Ali Özgündüz "Şərq"ə müsahibə verib. Xatırladaq ki, A.Özgündüz Azərbaycan əsilli siyasətçidir. Onunla müsahibəni təqdim edirik.**

**- Türkiyədəki seçki prosesi təkcə region ölkələrində deyil, demək olar ki, bütün dünyada maraqla izlənilir, təqib edilir. Sizcə, bu marağın səbəbi nədir və güc mərkəzi dövlətlərin bu seçkilərdən nə kimi gözləntiləri var?**

- Türkiyənin yer aldığı coğrafi mövqe, geopolitik vəziyyəti bu seçkiləri sizin də vurğuladığınız kimi, bütün dünyanın maraq obyektinə çevirib. Türkiyə hazırda bir tərəfdən Rusiya-Ukrayna müharibəsi, bir tərəfdən Qafqazdakı Azərbaycan-Ermənistan münaqişəsi, bir tərəfdən də Orta Şərqdəki, Suriyadakı, İraqdakı vəziyyət səbəbi ilə strateji bir mövqedə yer alır və Türkiyə hökumətinin izləyəcəyi, özəlliklə, xarici siyasət bütün bu bölgədəki vəziyyətə təsir göstərəcək. Ona görə də istər Amerika və Avropa Birliyi, istərsə də Rusiya və Körfəz ölkələri tərəfindən seçkilər yaxından izlənilir. 20 ildir ki, hakimiyyətdə olan Ərdoğan hökumətinin nə edəcəyi dünya tərəfindən təxmin edilir. Amma yeni gələcək hökumətin necə bir siyasət izləyəcəyi hər kəsin diqqət mərkəzindədir.

**- Sizcə, Türkiyədə hansı faktorlar seçki nəticələri üzərində güclü təsirə və müəyyənedici rola sahibdir?**

- Hazırda ən önəmli faktor iqtisadiyyatdır. Həyat bahalılığı, pandemiya sonrası ortaya çıxan vəziyyət və əlbəttə ki, zəlzələ də buna daxildir. Təxminən 15 milyon nəfəri maraqlandıran, 10 şəhərimizdə meydana gələn və hamımızı üzüntüyə qərq edən bu zəlzələ də seçkilərin nəticələrinə təsir göstərəcək. Amma ən əhəmiyyətlisi bizə görə, iqtisadiyyatdır. Yəni hazırda xalq dolanşıq problemi yaşayır, iqtisadi vəziyyət pisdir, buna görə də insanlar "axşam mətbəximdə nə bişirəcəm?, "cibimdə nə qədər xərcliyim var?", "uşağıma nə verəcəm?" buna baxır.

**- Digər faktorlar daha geridə qalır deyə fikirləşirsiz?**

- Bəli, çünki digər məsələlər cəmiyyətin daha intellektual kəsimini maraqlandırır. Məsələn, hökumətin xarici siyasəti, əslində əhalinin çoxunu maraqlandıran bir məsələ deyil. Bu, əhalinin, bəlkə bir 10 faizini maraqlandırar. Amma iqtisadiyyat bütün insanları maraqlandırır. Ona görə bu fikirdəyik.

**- Türk dünyasında R.T.Ərdoğana böyük hörmətin bəsləndiyini müşahidə etmək mümkündür. Bunda, təbii ki, Ərdoğan hökumətinin 2016-cı ildən etibarən xarici siyasətdə türk və müsəlman ölkələri ilə əlqələrin inkişaf etdirilməsinə istiqamətlənməsinin mühüm rolu vardır. Bu kontekstdə, sizcə, Türkiyədə iqtidar dəyişikliyi türk dünyası ilə münasibətlərə necə təsir göstərəcəkdir?**

- Əslində, türk dünyası Ərdoğana hörmət göstərmir, Türkiyə Cümhuriyyətinin cümhur rəisinə hörmət göstərir. Yəni bu mövqedə kim olsa, kim Türkiyə Cümhuriyyətinin cümhur rəisi olsa, türk dünyası ona hörmət göstərəcək, onsuz da. Bu, keçmişdən bəri belədir. Sovet İttifaqı dağıldıqdan sonra Dəmirəl zamanında da türk dünyası Dəmirələ, Özal zamanında Özala, Nejdet Sezər dönəmində Nejdat Sezərə, Abdullah Gül dönəmində Abdullah Gülə də hörmət göstərirdi. Türk dünyasının gözü hər zaman Türkiyənin üzərindədir və buna görə də Türkiyənin idarəçiliyinə hörmət göstərir. Yoxsa bu, şəxslərlə əlaqəli deyil. Yəni sabah Ərdoğan hakimiyyətdən getdikdən sonra, bizə görə, Kılıçdaroğlu gələcəkdir və Kılıçdaroğlu gəldiyi zaman ona da hörmət göstərəcəklər. Türkiyənin türk dünyası ilə bağlı siyasəti bu gün Ədalət və İnkişaf Partiyası (AKP) ilə, Ərdoğanla başlamış bir məqam deyildir. Bu, Atatürk zamanından başlayan bir siyasətdir. Hansı ki, Azərbaycanla bağlı Atatürkün məşhur bir sözü var "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" deyə. İstiqlal müharibəsi zamanında Azərbaycanın bizə kömək etməsini türk milləti bilir. O zaman Nəriman Nərimanovdan borc istəyən Atatürkə Nərimanov "qardaş qardaşa borc verməz, əl tutar",- deyir. Bunları türk milləti bilir. M.Ə.Rəsulzadə ilə Atatürkün dostluğu var. Atatürk bizim öz dilimizdə M.Ə.Rəsulzadəyə məktub yazır, deyir ki, "Sənin ucaltdığın bayrağı indi mən Türkiyədə ucaltmışam. Bu bayraq heç bir zaman enməyəcək". Buna görə də biz iqtidara gəldiyimiz zaman bu əlaqələr daha da irəliyə gedəcək, daha da inkişaf edəcək.

**- Azərbaycanda bir çox insan belə fikirləşir ki, Millət İttifaqı iqtidara gələcəyi təqdirdə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr hazırkı kimi güclü olmayacaq, Azərbaycan bir növ Türkiyənin dəstəyini itirəcək. Bununla bağlı sizin düşüncələriniz nədir?**

- Yox, azərbaycanlı dostlarımız bu məsələdə narahat olmasınlar. Bizim Cümhuriyyət Xalq Partiyasının (CHP) Partiya proqramında belə qeyd olunur ki, Azərbaycanın ərazi bütövlüyü əsasdır, Ermənistan Azərbaycanın torpaqlarından çəkilmədiyi müddətçə bizim Ermənistanla əlaqə yaratmamız imkan daxilində deyildir. Əgər xatırlayırsınızsa, daha öncə AK Partiya hökuməti 2009, 2010-cu illərdə Ermənistanla qapıları açmaq istəyəndə, o zaman bizim partiya sədrimiz Dəniz Baykal dedi ki, "buna heç kimin gücü çatmaz". "Ermənistan Azərbaycan torpaqlarından çəkilmədən bu qapı açılmaz"-, deyə biz çıxış elədik. Yəni CHP Azərbaycanı Türkiyənin bir hissəsi, özü olaraq görür. Dediyim kimi, bu siyasət Atatürkdən bəri başlayan bir siyasətdir. Bir də Türkiyənin Cənubi Qafqaz siyasəti, türk dünyası ilə əlaqəsi Azərbaycan üzərindən keçir. Buna görə də Türkiyə-Azərbaycan əlaqələri hökumətlərüstü bir məsələdir. Əslində bir dövlət politikasıdır. Ona görə də azərbaycanlı dostlar bundan əmin olsunlar ki, bu gün Türkiyə iqtidarı ilə, müxalifəti ilə Qarabağ müharibəsində haqlı olaraq işğal edilmiş torpaqlarının azad olunmasını istəyən Azərbaycanın yanındadır. Kılıçdaroğlu Qarabağ zəfərini özü qutlamış, təbrik etmiş və bununla bağlı parlamentdə çıxış etmişdir. Azərbaycanın BMT-dən qaynaqlanan bu haqlı mövqeyini dəstəkləmişdir. Biz bu gün müxalifətdə ikən bunları gerçəkləşdiririk. Bu mövzuda da iqtidarın Azərbaycan siyasətinə dəstək veririk. Yəni daha doğrusu, iqtidar deməyək, bu, hökumətlərüstü bir məsələdir. Sabah Ərdoğan və ya Əliyev var ya da yoxdur, fərq etməz, Türkiyə və Azərbaycan əlaqələri hər zaman davam edəcəkdir. Türkiyə və Azərbaycanın dostluğu, qardaşlığı heç bir zaman hökumətlərə bağlı olaraq dəyişməyəcək.

**- Millət İttifaqının Ortaq Mutabakat Mətnin 9-cu, sonuncu bölməsində, xarici siyasət, müdafiə, təhlükəsizlik, miqrasiya siyasəti kimi məsələlərə toxunulur. Orada belə bir bənd var, qeyd olunur ki, "Region ölkələrinin müstəqillik, suverenlik və ərazi bütövlüyünə hörmət bəsləyəcək, daxili işlərinə qarışmayacaq, aralarındakı problemlərdə tərəf tutan deyil, həlli asanlaşdıran olacağıq". Mən burada "tərəf tutan" ifadəsi üzərində dayanmaq istəyirəm. Bilirik ki, II Qarabağ müharibəsində Türkiyə Azərbaycanın yanında yer aldı və Prezident R.T.Ərdoğan da Azərbaycanın tərəfində olduğunu açıq-aşkar ifadə etdi. Bu nöqteyi-nəzərdən Azərbaycanın gələcəkdə yaşaya biləcəyi münaqişələrdə Kamal Kılıçdaroğlundan belə bir mövqe nümayiş etdirməsini gözləmək olarmı, olsa belə, bu, ortaq mutabakat mətni ilə uyğunsuzluq təşkil etməzmi?**

- Yox, uyğunsuzluq təşkil etməz. Oradakı məsələ bizim daha çox ərəb coğrafiyasındakı münaqişələrlə bağlıdır. Azərbaycan əvvəl də qeyd etdiyim kimi, Qarabağ müharibəsində BMT-dən qaynaqlanan özünümüdafiə haqqını istifadə etdi. Azərbaycan təcavüzkar dövlət deyil. Prezident İlham Əliyev də dedi ki, "biz illərlə gözlədik ki, bu iş sülh yolu ilə həll edilsin, olmayınca ordu gücündən istifadə etdik". İndinin özündə belə cənab Prezidentin Ermənistanla barış görüşmələri davam edir. Bu mövzuda Türkiyə Azərbaycanın yanındadır. Kılıçdaroğlu da II Qarabağ müharibəsi başlayanda bunun bir özünümüdafiə haqqı olduğunu, Azərbaycanın ona təcavüz edən Ermənistana qarşı özünü müdafiə etdiyini vurğuladı. Bu mövzuda Azərbaycanın yanındayıq. Narahat olmayın. Məsələ orasındadır ki, millət Azərbaycanın yanındadır. Millətin ittifaqı da Azərbaycanın yanında olacaq, kömək olacaqdır. Şuşa Bəyannaməsi var, bilirsiniz. Bu, Azərbaycanla Türkiyə dövləti arasında hərbi, iqtisadi əlaqələrinin daha da inkişaf etdirilməsi üçün bağlanan bir müqavilədir. Bu, dövlətlərarası bir müqavilədir və əlbəttə ki, biz də bunu dəstəkləyəcəyik. Gələn hökumət də Şuşa Bəyannaməsi istiqamətində lazım olan nədirsə, edəcəkdir. Bununla bağlı heç kim narahat olmasın. Burada biz varıq. Biz Türkiyədə Azərbaycan əsilli vətəndaşlar 3 milyondan çoxuq. 70-80 milyon da bizim arxamızda köməkdir. Hamımız birlikdə də Azərbaycanın köməyiyik.

**- Bəs, Türkiyədəki iqtidar dəyişikliyi Ermənistanla olan münasibətlərə necə təsir göstərəcək? Rəsmi Ankara ilə rəsmi İrəvan arasında bir yaxınlaşma gözlənilirmi?**

- Biz bölgədə sülh olmasını istəyirik. Hörmətli İlham Əliyevin də dediyi kimi, Azərbaycanda da erməni əsilli vətəndaşlar yaşayır. Xankəndi, Qarabağ Azərbaycanın bir parçasıdır, Azərbaycandır. Orada yaşayan ermənilərin də Azərbaycan vətəndaşı olması, Azərbaycan pasportu alması lazımdır ki, sülh içərisində yaşayaq. Biz müharibə istəmirik, amma onlar müharibə istəyir. Onlar hələ də Türkiyə torpaqları üzərində haqq iddia edirlər."Ararat, Ağrı Dağı, Qars, İğdır, Van, Bitlis, Muş, Ardahan bizimdir"-, deyirlər. "Qarabağ bizimdir",- deyirlər. Biz mehriban şəkildə, sülh içində yaşamağı təklif edirik. Əlbəttə ki, Zəngəzur koridorundan Ermənistan da istifadə etsin, Ermənistanla bağlı olan sərhəd qapıları açılsın. Ermənistan vətəndaşları gəlsinlər Azərbaycanda, Türkiyədə işləsinlər, ticarətlə məşğul olsunlar. Bizim insanlarımız getsin tarxi türk şəhəri olan İrəvana. Orada tarixi yaşayış yerlərini görsünlər. Biz müharibə istəmirik, biz sülh istəyirik.

**- Dedikləriniz çox xoş səslənir, sizcə, buna nail olmaq üçün nə qədər zamana ehtiyac vardır?**

- Olacaq, amma təbii ki, burada realist olmaq lazımdır. Rusiyanın mövqeyi bu məsələdə çox önəmlidir. Rusiyanın indi Ukrayna ilə bağlı başı bir az qarışıqdır. Bu müharibənin də bir an öncə sülhlə başa çatacağına ümid edirik. Çünki günahsız insanlar müharibənin qurbanı olurlar. Ukrayna məsələsi bitdikdən sonra Rusiya Zəngəzur koridorundan öz ticari inkişafı və gələcəyi üçün istifadə edəcək. Onsuz da bu koridora özü nəzarət edəcək. Yəni oranın təhlükəsizliyi də bağlanan müqaviləyə əsasən Rusiya tərəfindən təmin ediləcəkdir. Buna görə də, əgər Rusiya bunu istərsə, Ermənistanın başqa bir seçim imkanı yoxdur. Rusiya buna icazə verərsə, Ermənistan buna məcburən razı olacaqdır. Ondan sonrası asandır. Təbii ki, Ermənistan idarəçiliyini də nəzərə almaq lazımdır. Orada da çox milliyətçi bir kəsim var. Qarabağ klanları, oliqarxlar mövcuddur. Onlar Ermənistan idarəçiliyinə də təzyiq göstərirlər. Paşinyan da əslində müharibədən çox, sülh tərəfdarıdır. Amma başqaları müharibəni davam etdirmək istəyir. Bölgədə xaos istəyir. Bundan istifadə etmək istəyənlər var. Amma dediyim kimi, Rusiya bu mövzuda iradəsini bəyan edərsə, (əlbəttə, Fransa da önəmlidir, amma birinci önəmli Rusiyadır) bu məsələlər çox qısa zamanda, bir-iki ilə həll edilər, qapılar açılar və biz yenə əvvəllər, Osmanlı dönəmində olduğu kimi ermənilərlə dost, barış içində yaşayarıq.

**- Əli bəy, biz bilirik ki, siz eyni zamanda Türkiyə-İran Parlamentlərarası Dostluq Qrupunun katibi olmusuz. Bilirsiniz ki, son dövrlərdə Azərbaycan ilə İran arasında diplomatik səviyyədə gərgin bir vəziyyət yaşanır. Qarabağ məsələsində sizin də qeyd etdiyiniz kimi, Türkiyə istər iqtidar, istərsə də müxalifət olaraq Azərbaycanın yanında yer aldı. Bəs İranla yaşana biləcək hər hansı bir münaqişədə Millət İttifaqı necə bir mövqe nümayiş etdirəcək?**

- İran bu mövzuda səhv bir politika izlədi. Mən bunu hər yerdə deyirəm. İran Azərbaycana ən yaxın ölkədir. Orada da Azərbaycan əsilli milyonlarca insan yaşayır. İranın hər baxımdan Azərbaycanın yanında yer alması və ona kömək olması lazım idi. Mənə görə, İran bu mövzuda strateji bir xəta etdi. "Niyə İsrail Azərbaycana yardım edir?",- deyir. Sən yardım edəydin. İHA, SİHA sənin də var. Sən verəydin. "Sülh üçün",-deyirsən. Sülh olmadı. Sülh olmayanda sən əgər bir tərəf tutacaqsansa, Azərbaycanın tərəfini tutmağın lazım idi. Sənin hər iki ölkə ilə də qonşu olmağını başa düşürük. Amma Azərbaycan eyni zamanda islam torpağıdır. Sən Fələstin üçün gedib öz başını bəlaya soxursan. Niyə? Deyirsən, "orası islam torpağıdır, İsrail işğal edib". Bura da islam torpağıdır, erməni işğal edib. Bura niyə sahib çıxmırsan bəs? Arazın hər iki tərəfində iki qardaş var. Sən özün deyirsən ki, Azərbaycan məndən ayrılıb. O zaman sahib çıxmağın lazımdır. İran qorxur ki, Zəngəzur koridoru onu mühasirəyə alacaq və Qafqaza, Qaradənizə çıxışı əngəllənəcək. Amma elə deyil. İran, Ermənistan, Azərbaycan, Gürcüstan, Türkiyə birlikdə hərəkət etsə, o zaman Rusiyanı da tarazlaşdırmış olacaq. İranın bunu fikirləşməsi lazımdır. Biz deyirik ki, dostluq olsun, İran da işin içinə qatılsın. İranın da Şimal-Cənub koridoru ordan keçsin. İran yenə Zəngəzur koridoru üzərindən, yenə Ermənistan, Gürcüstan üzərindən Qaradənizə çatsın. Digər tərəfdən hər iki ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşılması barədə Xəzər müqaviləsi var. Mənim fikrimcə, artıq İran öz xətasını başa düşüb. İran yavaş-yavaş bunu düzəltməyə çalışır və düzəldəcəkdir. Dediyim kimi, sülh olduğu zaman onsuz da hamı qazanclı çıxacaq. Xaos olarsa, İran da hamı kimi zərər görəcək. Bu, İrana sərf etməz. Qafqazda xaos olduğu müddətcə İran bundan istifadə edə bilməz. Bu proses İranın da öz əleyhinə dönəcək. Bunun üçün Qafqazda təhlükəsizlik, sülh olması lazımdır. İranın da bu işin içinə qatılması, ticari fəaliyyətlərini genişləndirməsi lazımdır. Azərbaycanla, Türkiyə ilə dost olması lazımdır. Hansı ki, Qarabağ müharibəsi başlayanda Prezident İlham Əliyev də İran sərhədinə gedib azad edilən torpaqlarda İrana biz dostuq mesajı verdi. Azərbaycan dost əlini uzadır, sən də əlini tut. Dost bir addım atır, sən də iki addım at. İran da bu doğru politikaya gələcəkdir deyə düşünürəm. Türkiyədə Millət İttifaqı hakimiyyətə gəldiyində bu gün İran və Azərbaycan arasındakı soyuqluğun, bu gərginliyin aradan qaldırılmasında vasitəçi olaraq iştirak edəcəyik və dostluğun inkişaf etdirilməsinə qatqı verəcəyik.

**- Qeyri-rəsmi məlumatlara görə, Türkiyədə təxminən 100 minə yaxın azərbaycanlı qeyri-qanuni şəkildə yaşayır. Onların Türkiyədə yaşamaq üçün icazəsi olmadığından, demək olar ki, bir çox insani haqlardan məhrumdurlar. Bununla bağlı neçə illərdir, müəyyən addımlar atılır, amma tam nəticənin əldə edildiyini demək bir az çətindir. Millət İttifaqının bu insanlar üçün bir planı varmı? Millət İttifaqı hakimiyyətə gəldiyində bu insanların taleyi necə olacaq?**

- Bəli, bu, təxminən 20 ildir ki, belədir. Türkiyədə qeydiyyatda olmayan çox sayda Azərbaycan əsilli yurddaşımız var. Hələ onların bir çoxunun burada uşaqları olub. Artıq 3-cü nəsildir. Biz bu mövzuda Azərbaycan səfirliyi ilə, Azərbaycanın İstanbul Baş Konsulluğu ilə, buraya gəlib gedən Azərbaycanın səlahiyyətli şəxsləri ilə hər zaman müzakirələr aparırıq. Bizim dövlət nümayəndələrinə də deyirik ki, suriyalılara tanıdığınız imkanları türk əsillilərə də tanımağınız lazımdır. Bu problemə təbii ki, öncəliklə Azərbaycan dövlətinin sahib çıxması lazımdır. Hansı hökumət olursa olsun, bu, çox problemli bir məsələ deyil, təxminən 6 ay içində həll edilə bilər. Bu insanların qeydiyyata alınması və Azərbaycan vətəndaşı olaraq buradakı insani və digər haqlarından faydalanması lazımdır. Hazırda insanlar zərər çəkir. Millət İttifaqı hakimiyyətə gəldiyində bu mövzuda biz də işin içində olacağıq. Mən bir Azərbaycan əsilli olaraq bu işin təqibçisi olacam. Biz iqtidara gəldiyimizdə bu problemi qısa bir müddət ərzində həll edəcəyik.

**- Suallarımızı ətraflı cavablandırdığınız üçün, təşəkkür edirəm, Əli bəy. Sizin sonda əlavə etmək istədiyiniz hər hansı bir şey varmı?**

- Azərbaycanlı dotlarımızın, Azərbaycanı idarə edənlərin içləri rahat olsun. İqtidar dəyişəcək, Azərbaycanla bağlı siyasət dəyişəcək kimi belə fikirlərə qapılmasınlar. O dəyişməz. Bir daha söyləyirəm ki, Azərbaycan-Türkiyə arasındakı əlaqələri hökumətlərüstü, dövlətlərarası əlaqələrdir. Hərbi, təhlükəsizlik, kəşfiyyat sahəsində əlaqələrimiz var. Mən daha öncə parlamentdə də çıxış etmişəm. O zaman da dedim ki, heç "Bir millət, iki dövlət" anlayışını bir kənara qoyun. Tutaq ki, elə deyilik. Başqa-başqa dövlətlərik. Amma Türkiyənin öz mənfəətləri, Türkiyənin milli çıxarı Azərbaycanla yaxın olmağı gərəktirir. Türkiyənin Azərbaycanla münasibətləri yaxın deyilsə, Türkiyə Qafqazlarda olmaz, Türkiyə Orta Asiyada olmaz. Bu, Türkiyənin xeyrinədir. Buna görə də hökumətin kim olmasının fərqi yoxdur. Kim gəlirsə, kim gedərsə getsin. Heç narahat olmasınlar. Türkiyə-Azərbaycan əlaqələri dövlətlər səviyyəsində davam edəcəkdir. Yoxsa, şəxslərə bağlı olsa, hamımız ölümlüyük, bu gün varıq, sabah yoxuq. Nə olacaq yəni hazırkı prezidentlər getdiyi zaman?!. Elə şey olmaz. Məsələyə belə baxsınlar. Bir də azərbaycanlı dostlara bunu demək istəyirəm ki, Türkiyənin daxili siyasətinə qarışmasınlar. Keçən dəfə bir azərbaycanlı millət vəkili bu istiqamətdə bir çıxış etmişdi. O, xoş bir şey deyil. Ağlı başında olan bir siyasətçi başqa ölkənin daxili işlərinə müdaxilə etməz. Bu gün Azərbaycanın idarəçiliyində Prezident İlham Əliyev var. Biz rəsmi olaraq onu tanıyırıq, bizim həmsöhbətimiz odur. Türkiyədə də Ərdoğan. Sabah başqası olar, başqası. Bizə nə?!. Bizim Azərbaycanın içində yox Xalq Cəbhəsi, yox Müsavat, yox YAP-ı dəstəkləməmiz xoş olmaz ki. Ona görə də azərbaycanlı politikacılar özəlliklə Türkiyənin daxili siyasətinə bu mənada müdaxilə etməsinlər, bu, Azərbaycanın xeyrinə deyil, zərərinə olar.

**Maral Nəcəfli,**
**İstanbul**



# Əli Əkbər haqlıdır

## İranın hansısa dövlətlə müharibəyə başlamaq imkanı yoxdur

**İran Azərbaycanla müharibəyə hazırlaşmır. Bunu İranın ali dini lideri Əli Xameneinin müşaviri Əli Əkbər Vilayəti müharibə ehtimalı ilə bağlı sualı cavablandırarkən deyib. O deyib ki, İran inqilabdan sonra 15 qonşu ölkədən heç birinə hücum etməyib: "İran müharibəyə başlamayıb və başlamayacaq".**

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Vilayəti haqlıdır. Analitikin sözlərinə görə, Qərbin sərt sanksiyalarıyla və daxildə müxtəlif etnik qrupların tələbləriylə üzləşən, insanların rejimdən narazılıqlarını və etirazlarını artan ölüm cəzaları ilə həll etməyə çalışan, istisadiyyatı sabitləşdirə bilməyən İranın hazırkı vəziyyətdə hansısa dövlətlə müharibəyə başlamaq imkanı yoxdur: "Buna baxmayaraq, bu ağır vəziyyətdə belə İran qonşu ölkələrin daxili işlərinə qarışmaqdan vaz keçmir. İran Suriya, Livan, İraq, Yəmən, o cümlədən Azərbaycanda müxtəlif qrupları maliyyələşdirir. Bəzilərini silahlandırır, şəbəkələr yaradır. Bu, qonşularla müharibə anlamına gəlməsə də, İranın qonşu ölkələrin daxili işlərinə qarışmasıdır. Bu da bölgədə vəziyyətin sabitləşməsinə mane olur".

**İsmayıl**

# Bakı Vaşinqtona çağırışlar etməlidir

## Ermənistan-İran əlaqələri Amerikanın regional siyasətinə qarşıdır



**"Ermənistan-İran arasında hərbi-müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq sazişi bağlanılacaq". Bu barədə politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, Ermənistan və İran arasında hərbi- müdafiə sahəsində ümumi razılıq var:**

"Sazişin imzalanması istiqamətində addımlar atılır. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İrana səfəri çərçivəsində bu ölkənin Təhlükəsizlik Şurasının katibi Əli Şaxmayi ilə görüşdü. İki ölkənin Təhlükəsizlik şurası katibliyi səviyyəsində aparılan danışıqlarda Zəngəzur dəhlizi və Tehranın Ermənistana hərbi yardımı müzakirə edilib. Nəzərə alaq ki, İranın Təhlükəsizlik Şurasının katibi birbaşa dini rəhbər Xameneiyə tabedir. İran-Ermənistan arasında hərbi müdafiə və təhlükəsizlik sahəsində memorandumların imzalanması, bu ölkədə SEPAH-ın fəaliyyətinə icazə verilməsi deməkdir. Tehranın əsas planı Ermənistanı Azərbaycanla sülh müqaviləsinin imzalanmasından yayındırmaqdır. Ermənistanın bu siyasəti ABŞ Cənubi Qafqazda regional siyasətinə ziddir. Bu siyasət İranın Cənubi Qafqazda geosiyasi mövqeyinin güclənməsinə xidmət edir".

**Ekspert vurğulayıb ki, ötən ay ABŞ dövlət katibi Entoni Blinken Konqresdə Cənubi Qafqazda İranın artan təzyiqlərinin qarşısını almağın və Azərbaycanı müdafiə etməyin lazımlı olduğunu vurğulamışdı:** "ABŞ-nin dəstək verdiyi Ermənistan hakimiyyəti İranı regionda aktivləşdirmək üçün sazişlər imzalayır. Rəsmi Bakı bu kontekstdə Vaşinqtona çağırışlar etməli, Ermənistan-İran əlaqələrinin regionda sülhü təhdid etdiyini, Amerikanın regional siyasətinə qarşı olduğunu vurğulamalıdır. Tehranın Ermənistana verdiyi dəstək fonunda İran-Azərbaycan əlaqələrinin normallaşması gözlənilmir".

**İsmayıl**

# Tarix və yer razılaşdırılır

## Rusiya, Suriya, İran və Türkiyə XİN başçılarının görüşəcək



**Hazırda Rusiya, Suriya, İran və Türkiyə xarici işlər nazirlərinin dördtərəfli görüşünün tarixi, yeri və parametrləri razılaşdırılır.**

Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib.

"Bəli, biz indi müzakirənin tarixi, yeri, parametrləri ilə bağlı razılığa gəlirik", - Rusiya xarici siyasət idarəsinin rəhbəri Səmərqənddə MDB XİN başçılarının sammitinin yekunlarına dair mətbuat konfransında jurnalistin dördtərəfli görüşlə bağlı sualını cavablandırarkən deyib. (APA)

Lavrov qeyd edib ki, Rusiya Federasiyası, İran, Suriya və Türkiyə XİN rəhbərlərinin görüşü üçün heç bir ilkin şərt olmamalıdır.

# Əsgərlərimiz əsirlikdən dərhal qaytarılmalıdır

## Çingiz Qənizadə: "Ermənistan hərbçilərimizə işgəncə verməklə Cenevrə Konvensiyasının 3-cü maddəsinin tələblərini pozub"

**Naxçıvanın Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində yolunu azaraq Ermənistana keçmiş əsgərlərimizin ağır işgəncələrə, qeyri-insani rəftara məruz qalması ölkə ictimaiyyətini hiddətləndirib. Şübhəsiz, əsgərlərimizin əsir götürülməsi, amansız işgəncələrə məruz qalması ermənilərin barbar və vəhşi millət olduğunu bir daha ortaya qoydu.**



***"İrəvan iki əsgərimizdən siyasi alver məqsədi ilə istifadə edir, hesab edirəm ki, beynəlxalq təşkilatlar Ermənistanın çirkin siyasi alverinə "yox" deyəcək"***

Silahsız əsgərin xüsusi amansızlıqla döyülməsi, təhqir olunması və həmin görüntülərin aşkar şəkildə sosial şəbəkələrdə paylaşılması bütün qanunların ayaqlar altına alınması deməkdir. Beynəlxalq Qızıl Xaç Komitəsi iki azərbaycanlının məsələsi barədə məlumatlı olduqlarını açıqlayıb. Qeyd olunub ki, qurum ailələr və müvafiq qurumlarla əlaqədədir və məqsədləri saxlanılan şəxslərə mümkün qədər tez baş çəkməkdir. Lakin görüşün hansı səbəbdən gecikdirilməsinin məlum olmadığı deyilib. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu bildirib ki, Ermənistanda Azərbaycan hərbçisinə qarşı pis rəftarın görüntüləri dərin narahatlıq doğurur: "Hadisə dərhal araşdırılmalı və məsuliyyət daşıyanlar beynəlxalq hüquq normalarına uyğun olaraq məsuliyyətə cəlb edilməlidir". Milli Məclisin sədri Sahibə Qafarova MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının plenar iclasında çıxışı zamanı deyib ki, beynəlxalq təşkilatlar Ermənistanın iki Azərbaycan hərbçisinə qarşı işgəncə və zorakılığını araşdırmalı və ona lazımi qiymət verməlidirlər.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan tərəfi iki əsgərimizin dumanlı hava şəraitində azaraq onların ərazisinə keçməsi ilə bağlı dərhal məlumat verməlidi. Hüquq müdafiəçisinin sözlərinə görə, bununla bağlı presedentlər var:** "Ermənistanın həm mülki şəxsləri, həm də hərbçiləri azaraq Azərbaycan tərəfinə keçdikdə saxlanılmış və dərhal Ermənistana sağ-salamat geri qaytarılmışdı. Bunları bir neçə dəfə etmişik. Amma Ermənistan nəinki əsgərlərimizi geri qaytarmadı, onların əsir götürüldüyünü gizlətməyə çalışdı. Müxtəlif oyunlar oynadılar ki, guya, əsgərlərimiz "kəşfiyyatçı"dır, "silahlı olublar", "tapşırıq yerinə yetirməyə gəliblər" və s. Halbuki iki gənc əsgərimiz yolu azaraq Ermənistan tərəfinə keçiblər. Əsgərimizə qarşı ermənilər tərəfindən qeyri-insani rəftar edilib, işgəncələrə məruz qoyulub. Bunu əks etdirən videogörüntülər sosial şəbəkələrdə yayıldı. Bu artıq cinayət əməlidir. Ermənistan qanunverciliyində də bu əməl cinayət hesab edilir. Ancaq İrəvanla sülh sazişi imzalanmadığı üçün biz bu məsələni beynəlxalq hüquq konvensiyaları çərçivəsində müzakirə edə bilərik. Ermənistan əsgərlərimizə işgəncə verməklə Cenevrə Konvensiyasının 3-cü maddəsinin tələblərini pozub. 3-cü maddədə qeyd olunub ki, əsir əsgərlərə qarşı işgəncə və qeyri-insani hərəkətlər etmək qadağan olunur. Bundan başqa digər konvensiya var ki, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi ilə bağlı Ermənistan da üzərinə öhdəlik götürüb. Ermənistan konvensiyanı imzalayan dövlətlərdən biridir. Bunun da tələbləri pozulub. 2021-ci ilin dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən Azərbaycan və Ermənistanın qarşılıqlı iddiasına baxılarkən, Ermənistan üzərində bir öhdəlik qoyulmuşdu ki, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsinə dair tədbirlər görsünlər. Növbəti ikinci məhkəmə isə 2023-cü ilin fevralın 22-də baş tutdu. Budəfəki məhkəmə qərarında da Ermənistanın 2021-ci ildə üzərinə götürdüyü öhdəliklər vurğulandı. Ermənistan üzərinə mina terroruna son verməsi, saxlanılan, əsir düşən insanlara işgəncələr verməkdən çəkinməsi ilə bağlı öhdəliklər qoyulub. Baxın, konvensiyalar, beynəlxalq Ədalət Məhkəməsinin qəbul etdiyi iki qərar pozulur".

**Ç.Qənizadə bəyan edib ki, beynəlxalq təşkilatlar və Avropa İttifaqı qarşısında tələblər irəli sürməliyik:** "Beynəlxalq Qırmızı Xaç Komitəsindən tələb etməliyik ki, dərhal əsgərlərimizə baş çəksinlər, onların ailə üzvləri ilə əlaqəsinə yardımçı olsunlar. Qısa zaman kəsiyində əsgərlərimizin Azərbaycana qaytarılması ilə bağlı ciddi addımlar atsınlar. XİN-in, Ombudsmanın, QHT-nin bəyanatı var və ümid edirik ki, nəticəsiz qalmayacaq. Əsir götürülən əsgərlərimiz cinayətkar deyil və yolu azdıqları üçün Ermənistan tərəfə keçiblər. Bizdə olan ermənilər isə Azərbaycan ərazisinə təxribat məqsədilə gətirilib. Onların bir çoxu mühakimə edilib və müxtəlif cəzalara layiq görülüblər. Ermənistan tərəfi əsirlərlə erməni cinayətkarlarının dəyişdirilməsi məsələsini gündəmə gətirir. Görünür, İrəvan iki əsgərimizdən siyasi alver məqsədilə istifadə etməyə çalışır. Təbii ki, bu, qəbuledilməzdir. Hesab edirəm ki, beynəlxalq təşkilatlar Ermənistanın çirkin siyasi alverinə "yox" deyəcək və əsgərlərimizi əsirlikdən qurtararaq Azərbaycana təhvil verəcəklər".

**İsmayıl Qocayev**

**Avropa Birliyi Azərbaycan və Ermənistan arasında şərti sərhəddə gərginliyi azaltmaq üçün qoşunların çıxarılması təklifini etmişdi. Bu təklif Ermənistan tərəfindən müsbət qarşılanıb. Baş nazir Nikol Paşinyan bildirib ki, AB-nin qoşunların Azərbaycanla sərhədin bütün perimetri boyu geri çəkilməsi ilə bağlı təklifi ilə razılaşır.**



# Avropa Birliyi Ermənistanla yeni bir ssenari hazırlayıb

## Professor vurğulayıb ki, bu ssenari daha çox Azərbaycanla Rusiyanı üz-üzə qoymağa hesablanıb

Paşinyan deyib ki, onlar 2021-ci ildən qoşunları çıxarmağa hazır olduqlarını bəyan ediblər: "Bu cür hərəkətlər Praqa bəyanatı və Soçidəki üçtərəfli bəyanatın əsasında qoyulan məntiqdən irəli gəlir. Biz qoşunları Ermənistan-Azərbaycan 1991-ci il sərhəd xətti boyunca təhlükəsiz məsafəyə çəkməyə hazırıq". Baş nazir deyib ki, söhbət 1991-ci il dekabrın 21-də Almatı bəyannaməsi ilə dövlət sərhədinə çevrilən Ermənistan SSR ilə Azərbaycan SSR arasında mövcud olan inzibati sərhəddən gedir: "Avropa Birliyinin bəyanatında deyilir ki, bu xəttə hörmət edilməlidir". Göründüyü kimi Ermənistanın Baş naziri Nikol Paşinyan "güzgü prinsipi"nin 1991-ci il sərhəd xəttinə uyğun tətbiq edilməsi ideyası ilə çıxış edir. Erməni baş nazirə görə, qoşunlar geri çəkilməli, bundan sonra delimitasiya-demarkasiya prosesi başlanmalıdır. Analitiklərin fikrincə, İrəvan bununla öz planını həyata keçirmək niyyətindədir. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra Azərbaycan Ordusu dövlət sərhədinin bərpa edilməsi istiqamətində irəliləyiş əldə edib. Bu prosesə işğal dövründə Ermənistanın qanunsuz şəkildə irəli çəkdiyi sərhədin bərpası da daxildir. Nikolun "güzgü prinsipi" isə Azərbaycan Ordusunun dövlət sərhədinin bərpa edilən istiqamətlərindəki mövqelərindən geri çəkilməsi deməkdir. Erməni baş nazirin qoşunların geri çəkilməsini məhz 1991-ci il sərhəd xəttinə uyğun həyata keçirmək təklifi də İrəvanın maraqlarına xidmət edir. İrəvan bununla SSRİ dövründə otlaq və əkin sahəsi adı altında Ermənistana bağışlanan əraziləri, o cümlədən Qazaxın işğal altında qalan 7 kəndi və Naxçıvanın Kərki kəndini gündəmdən çıxarmağa çalışır. Rəsmi Bakı birmənalı şəkildə buna qarşıdır.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Avropa Birliyi Ermənistanla yeni bir ssenari hazırlayıb. Professor vurğulayıb ki, bu ssenari daha çox Azərbaycanla Rusiyanı üz-üzə qoymağa hesablanıb:** "Rəsmi Bakı dəfələrlə İrəvana çağırış etsə də, sərhədlərin delimitasiya və demarkasiya prosesi aparılmayıb. Bu məsələ həllini tapmamış qoşunların qeyri-müəyyən sərhəddən, yəni təmas xəttindən geri çəkilməsi anormal olar. 1991-ci il sənədində sərhədlər dəqiq müəyyənləşməyib ki, indi proses ona uyğun həyata keçirilsin. Ərazilərimizin erməni işğalında 30 ilə yaxın qalması onları "erməni torpağı" etmir ki? Azərbaycan tərəfi işğaldan azad edilən ərazilərimizin təhlükəsizliyini təmin etməlidir. Ermənistanla sərhədlərimizdə qoşunlar, sərhəd qüvvələri dayanmalıdır. Bu, bizim daxili işimizdir. İstəyirlər ki, Azərbaycan öz qoşunlarını geri çəksin və həmin mövqeləri ermənilər ələ keçirsin. Belə olan halda təbii ki, düşmənin layiqli cavabı dərhal veriləcək. Erməni tərəfi də dünyaya car çəkəcək ki, "Azərbaycan Ordusu Ermənistana hücum edir". Bu, həm Avropa Birliyinin "əlinə oynamaqdır", eyni zamanda Rusiyanın maraqlarına uyğundur. Rusiya Qafqazdan çıxmaq istəmir və Azərbaycan-Ermənistan arasında sülh prosesi uzandıqca Kremlin təsir imkanları da artır. Bir qarış da geri çəkilmək olmaz. Sabah bunu əleyhimizə istifadə edərlər. Deyərlər ki, "torpaqlar sizin idisə, niyə geri çəkildiniz". Burada bizə qarşı çox incə və təhlükəli siyasət işlədilir. İrəvan köhnə xislətinə uyğun davranır və elə zənn edir ki, Azərbaycan tələyə düşəcək. Rəsmi Bakı hər şeyi yaxşı görür və İrəvanın hansı addımları ata biləcəyini gözəl bilir".

**İsmayıl Qocayev**

# Ermənistan Minsk qrupuna "nəfəs" vermək istəyir

## Çünki İrəvan Rusiya, ABŞ, Fransa arasında özünü təhlükəsiz hiss edir



**"Ermənistan ATƏT-in Minsk qrupunu yenidən dirçəltmək istəyir. Çünki Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ, Fransa arasında özünü təhlükəsiz hiss edir".**

**Bunu Ermənistanın Baş naziri Nikol Paşinyanın ATƏT-nın sədri ilə görüşünü şərh edərkən politoloq Turab Rzayev deyib.**

**Siyasi şərhçi bildirib ki, hazırda Paşinyana qarşı Rusiyadan təzyiq var:** "Ermənistan xarici işlər naziri Vaşinqtonda idi. Görüşü məcburi yarıda saxlayıb geri döndü, Rusiyanın təzyiqi ilə Moskvaya yollandı. Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova NATO ilə birgə təlimlərdə iştirakı ilə bağlı İrəvandan açıqlama istədi. Paşinyan "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) istəsə də, istəməsə də Ermənistandan gedir" demişdi. Zaxarova da "Ermənistanın öz ərazisində KTMT təlimlərinin keçirilməsindən imtina etməsi təəssüf doğurur və regional təhlükəsizliyin artırılmasına töhfə vermir" deyə cavablamışdı. Bundan sonra Ermənistan XİN açıqlamasında KTMT təlimlərinin keçirilməsinə etiraz etmədiklərini söylədi. Paşinyan beynəlxalq aləmdə tərəfdar toplamağa çalışır. ABŞ, Fransa və digər Avropa ölkələri ilə münasibətləri qabardaraq Rusiyanın təzyiqinə əks-reaksiya verməyə səy göstərir".

*Qeyd edək ki, aprelin 13-də Ermənistanın Baş naziri Nikol Paşinyan ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani ilə görüşüb.*

**Aygün Tahir**

# Daha 5 qadın dini ayin icraçısı məscidlərə təyinat alıb

**Daha 5 qadın dini ayin icraçısı Saatlı rayonu "Varxan" kənd, Quba şəhəri "Cümə", Siyəzən şəhəri "Cümə", Ağdaş şəhəri "Hacı Məhəmməd" və Zaqatala şəhəri "Cümə" məscidlərinə təyin olunublar.**



Bu barədə "Şərq"ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən bildirilib.

Qeyd edilir ki, Komitə tərəfindən 13-15 fevral 2023-cü il tarixində İslam dininə aid ibadət yerlərində qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün keçirilmiş müsahibədə iştirak edən və uğur qazanaraq təyinat almış bir qrup qadın dini ayinlərin icraçıları ilə görüş keçirilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı görüş zamanı ölkədəki dini durum, dövlətin dini abidələrə və din xadimlərinə göstərdiyi yüksək diqqət və qayğısından bəhs edib. Dini ayin icraçılarına müvafiq tövsiyələr verərək, fəaliyyətlərində Azərbaycan reallığı və ölkəmizin tarixi dini ənənələrinin əsas götürülməsinin vacibliyini diqqətə çatdırıb. M.Qurbanlı dini mərasimlər zamanı İslami dəyərlərin olduğu kimi təbliğ edilməsinin vacibliyini vurğulayıb.

Daha sonra qadın dini ayinlərin icraçılarının fikirləri və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

*Qeyd edək ki, görüşdə iştirak edən qadın dini ayin icraçıları Dövlət Komitəsi sədrinin müvafiq əmri ilə Saatlı rayonu "Varxan" kənd, Quba şəhəri "Cümə", Siyəzən şəhəri "Cümə", Ağdaş şəhəri "Hacı Məhəmməd" və Zaqatala şəhəri "Cümə" məscidlərinə təyin olunublar.*

*Xatırladaq ki, bundan öncə təyinat almış 10 nəfər qadın dini ayin icraçısı artıq respublikamızın müxtəlif şəhər və rayonlarında yerləşən məscidlərdə fəaliyyət göstərirlər.*

**Fransanın Ermənistanı dəstəkləyən bəyanatı reallıqdan tamamilə uzaq yanaşma olmaqla bərabər, riyakarlığın bariz nümunəsidir. Bununla Fransa növbəti dəfə özünün əsl simasını göstərdi. Fransa hər zaman təcavüzkar, işğalçı Ermənistanın yanında yer alıb. Məhz Fransa kimi ölkələrin rəsmi İrəvana verdiyi dəstək sayəsində Ermənistan Azərbaycan ərazilərinin 20 faizini 30 ilə yaxın işğalda saxlayıb.**



# Fransa heç vaxt ədalətli mövqe tutmayacaq

## Bu ölkənin Ermənistana olan sevgisi, Parisin əsl mahiyyətinin nədən ibarət olduğunu ortaya qoyur

Təcavüzkarla təcavüzə məruz qalan ölkəni ayırd edə bilməyən bir Avropa ölkəsinin davranışları, sözsüz ki, onun qaranlıq keçmişindən qaynaqlanır. Heç şübhəsiz, dünya ictimaiyyəti Fransanın müstəmləkə siyasətini, bunun nəticəsində soyqırımlar, etnik təmizləmələr aparmasını unutmayıb. Fransanın Əlcəzairdə törətmiş olduğu soyqırımı aktı bunun bariz nümunəsidir. Bu mənada Fransa kimi ölkənin ədalətli davranması qeyri-mümkündür. Onun Ermənistana olan sevgisi və bunun fonunda göstərdiyi dəstək də Fransanın əsl mahiyyətinin nədən ibarət olduğunu ortaya qoyur. Fransa Azərbaycan-Ermənistan münaqişəsi dövründə vasitəçi olduğu müddətdə ikincinin hərbi təcavüzünə və işğalçı siyasətinə düzgün qiymət verməyib. Bu ölkə heç bir halda münaqişənin həllinə çalışmayıb. Əksinə, təcavüzə məruz qalan ölkəyə qarşı ədalətsizlik edib. Eyni zamanda Azərbaycan özünün beynəlxalq hüquq tərəfindən tanınan və qəbul olunan ərazi bütövlüyünü bərpa etdikdən sonra Fransadan ölkəmizə qarşı riyakar mövqe sərgilənib. Bu baxımdan hər zaman ölkəmizə qarşı qarayaxma kampaniyası aparan Fransanın bu bəyanatı da onun növbəti qeyri-ədalətli mövqeyidir.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov bəzi ölkələrin açıq-aşkar ermənipərəstliyinə artıq vərdiş etdiyini deyib. Partiya rəhbəri qeyd edib ki, həmin ölkələrin ən başda gələnlərindən biri isə məhz Fransadır:** "Bu ölkə ötən gün növbəti dəfə ənənəvi ermənipərəst mövqeyini bir daha nümayiş etdirib. Fransa Xarici İşlər Nazirliyinin Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatla bağlı aprelin 12-də günahkar tərəfə deyil, Azərbaycana qarşı ittihamlarla dolu bəyanat yayması bu ölkənin heç vaxt ədalətli mövqe tutmayacağını göstərir. Azərbaycanı Ermənistanın "ərazi bütövlüyünə hörmət" etməyə çağıran Fransa tərəfi ilk növbədə özü Azərbaycanın ərazi bütövlüyünə və bütövlükdə beynəlxalq hüquqa hörmətlə yanaşmılıdır. Fransa prezidentinin və fransız parlamentarilərinin beynəlxalq hüquqla bağlı ciddi surətdə maariflənməyə ehtiyacları var. Ümumiyyətlə, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın özünə ədalət və obyektivlik dərsi keçmək lazımdır".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Sağlam nəsil sağlam qadınlara bağlıdır

## Ana və uşaq sağlamlığının qorunması təbii artımın əsas şərtidir



**Azərbaycan demoqrafik problemin yaşanmadığı ölkədir. Doğulanların sayı vəfat edənlərin sayını üstələyir, əhalinin təbii artımı davam edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə Azərbaycanda 122 min 846 doğum, 60 min 810 ölüm halı qeydə alınıb. 2022-ci ilin yanvar-dekabr aylarında Azərbaycan əhalisinin sayı 63 min 836 nəfər və ya 0,6 faiz artıb. Dövlət Statistika Komitəsinin ”2023-cü ilin yanvar ayında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri” hesabatına görə, 2023-cü il yanvar ayının 1-i vəziyyətinə Azərbaycan əhalisinin sayı 10 milyon 127 min 145 nəfər təşkil edib (Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazisindəki əhali istisna olmaqla). Bunlar müsbət göstəricilərdir.**

Əhalinin təbii artımının davam etməsi həm ümumən əhalinin sağlamlığının, həm də xüsusi olaraq ana və uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən zəruri tədbirlərə bağlıdır və böyük əhəmiyyət daşıyır. Son illərdə ana və uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyət və səmərəliliyi də artıb. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatında bildirilir. Qeyd edilir ki, ana və uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin daha da artırılması məqsədilə Agentlik tərəfindən müasir tibbi avadanlıqlar, cihazlar və alətlər alınıb. Yeni alınan tibbi avadanlıqlar TƏBİB-in tabeliyindəki tibb müəssisələrində hamilə qadınların, habelə perinatal, neonatal və postneonatal dövrlərdə uşaqların müxtəlif müayinə və müalicəsində istifadə olunacaq. Transabdomenal və transvaginal ginekoloji müayinələrin aparılması üçün 27 ədəd müasir ultrasəs cihazı alınıb. Bu müayinə metodlarından uşaqlıqdaxili polipləri, mioma və törəmələrin aşkarlanmasında istifadə olunur. İcbari tibbi sığortanın təminatına daxil olan ginekoloji ultrasəs müayinəsi ilə bir çox xəstəlikləri müəyyən etmək mümkündür. Ginekoloji USM zamanı uşaqlıq, yumurtalıqlar, uşaqlıq boynu, borular və kiçik çanaq nahiyəsi müayinə edilir. Hamiləliyin gedişatının izlənilməsi üçün alınmış 9 ədəd üçölçülü (3D) USM cihazı isə dölün inkişaf etaplarının daha dəqiq görüntülənməsinə imkan verir. Bu müayinə metodu ilə hamiləliyin daha erkən mərhələlərində dölün fizioloji və patoloji inkişafı haqqında məlumat əldə edilir. İkiölçülü (2D) USM aparatlarından fərqli olaraq, innovativ müayinə metodu olan 3D USM texnologiyasının köməyi ilə müayinə edilən nahiyə daha dəqiq təsvir olunur, bu da müalicə həkiminin operativ qərarlar verməsini mümkün edir. Bununla yanaşı, ana bətnində dölün ürək döyüntülərinə əsasən vəziyyətinin qiymətləndirilməsinə imkan verən 10 ədəd kardiotokoqrafiya (KTQ) cihazı alınıb. Vaxtından əvvəl doğulmuş körpələrin saxlanılması üçün 50 ədəd inkubator (küvez) və 20 ədəd fototerapiya cihazı alınıb. Sensorlu panel vasitəsi ilə inkubatorlarda havanın və körpənin bədən hərarətinə, rütubətə nəzarət etmək mümkündür. Vəziyyəti ağır olan, vaxtından əvvəl doğulmuşların respirator terapiyası üçün isə 20 ədəd süni tənəffüs cihazı alınıb. Cihazlar yenidoğulmuşları fasiləsiz oksigenlə təmin etməklə onların həyatda qalması üçün nəzərdə tutulub. Yeni alınmış 20 ədəd uşaq bələmə masası, 20 ədəd uşaq tərəzisi, yeni doğulmuşlar üçün 20 ədəd süni tənəffüs aparatı, 20 ədəd tərəzi, 10 ədəd elektrik mühərrikli pediatrik çarpayı, 50 ədəd beşik tipli çarpayısının perinatal mərkəzlərə və doğum evlərinə verilməsi planlaşdırılır. Qeyd edək ki, Agentlik tərəfindən 2022-ci ildə ümumilikdə 108 adda 1768 sayda avadanlıq, cihaz, alət və ləvazimat alınıb. Bunlar dövlət tibb müəssisələrində ambulator və stasionar şəraitdə tibbi xidmətlərin göstərilməsi üçün istifadə olunacaq. Avadanlıqların 2023-cü il ərzində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki dövlət tibb müəssisələrinin ehtiyaclarına uyğun təhvil verilməsi nəzərdə tutulub. TƏBİB-n uşaq sağlamlığının qorunmasına dair qurumun tabeliyində olan tibb müəssisələrinin direktorları, struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirdiyi müşavirədə də ana və uşaq sağlamlığının qorunması məsələlərinə toxunulub. Bildirilib ki, bu məsələyə dövlət səviyyəsində xüsusi önəm verilir. Uşaqların icbari dispanzerizasiyadan keçirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilir. Valideyn himayəsindən məhrum olan uşaqlar hər il dövlət proqramı çərçivəsində dispanserizasiya müayinələrinə cəlb edilir, TƏBİB-in tabeliyində fəaliyyət göstərən poliklinikalarda dispanserizasiyadan keçirilirlər. Xəstə və xəstələnmə riski olan uşaqların bərpa müalicəsinin təşkili məqsədilə Uşaq Bərpa Mərkəzində 2 min 528 xəstəyə 23 min 526 fizioterapevtik prosedur, 1 482 xəstəyə 18 min 81 müalicəvi bədən tərbiyəsi prosedurları aparılıb. Ana və uşaq sağlamlığının qorunmasında paytaxt və regionlarda fəaliyyət göstərən Perinatal mərkəzlərin rolu böyükdür. Bir çox bölgələrdə belə mərkəzlər var. Yenidoğulmuşları qəbul edən əsas perinatal mərkəzlər Respublika Perinatal Mərkəzi, Sumqayıt Perinatal Mərkəzi, Şəki Regional Perinatal Mərkəzi, Lənkəran və Gəncə RPM-dir, həmçinin Elmi-Tədqiqat Pediatriya İnstitutu da bura daxildir. Mərkəzlərə köçürülmə, əsasən, vaxtından əvvəl doğulmuş körpələrə reanimasiyon qulluq və ya cərrahi müdaxilələr tələb olunduğu halda aparılır.

**Ana və uşaq sağlamlığının qorunmasıyla bağlı həyata keçirilən tədbirləri qənaətbəxş hesab edən həkim-ginekoloq Fəxranə Hüseynzadə ”Şərq”ə açıqlamasında qeyd etdi ki, müasir avadanlıqların alınması pasiyentlərin daha dəqiq müayinə edilməsinə imkan yaradır:**

- Hamiləliyin gedişatının dəqiq izlənilməsi körpənin sağlam doğulması, ananın da sağlamlığının qorunması üçün vacib şərtdir. Biz həkimlər xanımlarımıza tibbi-ginekoloji müayinələrdən yayınmamağı daim məsləhət görürük. Sağlam övlad, sağlam nəsil qadın sağlamlığından birbaşa asılıdır. Sağlam qadın sağlam övlad dünyaya gərirəcək, gələcəyimiz sağlam olacaq. Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış üçölçülü (3D) USM cihazı dölün inkişaf etaplarının daha dəqiq görüntülənməsinə imkan verir. Hamiləliyin daha erkən mərhələlərində dölün fizioloji və patoloji inkişafının gedişatını müəyyən etmək mümkündür. Bu aparat vasitəsilə müayinə edilən nahiyə daha dəqiq təsvir olunur, bu da müalicə həkiminin düzgün qərarlar verməsinə imkan yaradır. Kardioqrafiya cihazı ana bətnində dölün ürək döyüntülərini izləyə bilir. Həmçinin bətndaxili oksigen çatışmazlığını (hipoksiya) və uşaqlığın tonusunu qiymətləndirir. Bu müayinələr dölün sağlamlığı haqqında ətraflı məlumat almağa imkan verir, nəticədə həkim ananın və doğulacaq körpənin nə dərəcədə sağlam olması haqqında daha aydın informasiyaya malik olur. Yenidoğulmuşların sağlamlığının bərpası üçün inkubator - küvezlər də böyül əhəmiyyət daşıyır. Müsbət haldır ki, Agentlik küvəzlərin sayının artırılmasına nail olub. Keçirilən müşavirədə uşaqların dispanserizasiyası, immunizasiyası barədə də danışıldı. Uşaqların peyvəndlənməsinin Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənmiş təqvim üzrə aparılmasının vacibliyi vurğulandı. Qeyd edim ki, peyvənd təqviminə əsasən, körpələrə doğulduqdan sonrakı ilk 12 saat ərzində, 2, 3, 4, 6, 12, 18 aylıqlarda, 6 yaşında vurulmalı olan peyvəndlər var. Valideynlər peyvənd məsələsinə ciddi yanaşmalıdır, ərazi üzrə tibb müəssisələrinə müraciət etməlidirlər, ərazi bölmə həkimləri də işlərinə məsuliyyətlə yanaşmalı, körpələrin peyvənd olunmasını vaxtlı-vaxtında yerinə yetirməlidirlər. Uşaqların və böyüməkdə olan nəslin sağlamlığı bundan çox asılıdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## Azərbaycan tələb etməlidir

“Ekspertlər əsgərlərimizi dindirsin”



**”Həm Azərbaycan, həm Ermənistan, həm də dünya qanunvericiliyində işgəncə cinayət məsuliyyəti yaradır”.**

*Bunu ”Şərq”ə hüquqşünas Əsəbəli Mustafayev əsir düşən hərbçilərimizin işgəncəyə məruz qalmasına münasibət bildirərkən deyib.*

O qeyd edib ki, xüsusilə əsir düşmüş döyüşçülərə qarşı işgəncə çox böyük qanun pozuntusudur: ”Bununla bağlı Vyana Konvensiyasında da müddəa var. Artıq bir çox beynəlxalq təşkilatlar və Qırmızı Xaç Komitəsi məsələ ilə maraqlanır. Düzdür, Ermənistan tərəfi işgəncə etdiyini inkar edə bilər. Lakin hadisə ilə bağlı görüntülər var və hər şey açıq-aşkar görünür. Azərbaycan dövləti müvafiq qurumlardan tələb etməlidir ki, beynəlxalq ekspertlərin iştirakı ilə həmin əsgərlər dindirilsin və onlara qarşı olan zorakılıqlar qeydiyyata alınsın”.

**Vəkilin sözlərinə görə, işgəncə halı qeydiyyata alındıqdan sonra Ermənistan hökumətindən cinayəti törədənlərin məsuliyyətə cəlb olunması tələb edilməlidir:** ”Əgər onlar bundan boyun qaçırsalar, Azərbaycanın işgəncə faktının tanınması ilə bağlı Avropa Məhkəməsinə müraciət etmək hüququ var. Hətta lazımi tədbirlərin görülməsi ilə əlaqədar Avropa Məhkəməsinə indi də müraciət etmək olar. Yəni Avropa Məhkəməsinin əli ilə təcili olaraq qonşu ölkələrdən Ermənistana həkimlərin dəvət olunması və hərbçilərimizin tibbi ekspertizadan keçirilməsini hökumət tələb edə bilər. Vaxtın uzanması isə bizim əleyhimizə işləyəcək. Çünki vaxt uzandıqca işgəncə izləri itəcək və Ermənistan tərəfi əsgərlərimizi qorxudaraq onlardan yalan danışmağı tələb edə bilər. Bu səbəblə də hökumət təcili olaraq beynəlxalq qurumlarla yanaşı, Avropa Məhkəməsinə də müraciət etməlidir”.

*Qeyd edək ki, Ermənistan KİV Zəngəzurda (Sünik) Azərbaycan Ordusununu hərbi geyimində olan şəxsin saxlanılmasının görüntülərini yayıb. Görüntülərdə saxlanılan şəxsin vəhşicəsinə döyüldüyü hiss olunur.*

**Nihat Müzəffər**

# Hər kəsin psixoloji durumu sağlam deyil axı!

## Şəhidlərimizin dəfnində çəkilən kadrlar süzgəcdən keçirilməlidir

**Şəhid dəfnlərində çəkilən şəkillər və videolar qədər ürək ağrıdan mənzərə yoxdur. Səssiz sandığımız bu fotolar əslində dili ilə ürəyimizə köz basır. Müharibənin, savaşın görmədiyimiz, bilmədiyimiz üzündən danışır bizə. Ən çox da atasının bayrağa bükülmüş rəsmini sinəsinə basıb için-için ağlayan şəhid övladlarının fotoları ...**

Körpə canları ilə gizlətmək istədikləri, amma gizlədə bilmədikləri ağrı, əzab yağır o fotolardan.

11 aprel şəhidimiz Vidadi Zalovun dəfn mərasimi zamanı azyaşlı oğlunun anasına sığınıb hönkür-hönkür ağlaması ona baxan hər kəsi dərindən sarsıtdı, içimizi göynətdi. Sanki dünyanın bütün ağrı-acısını onun çiyinlərinə yükləmişdilər. Qeyd edək ki, şəhidlərin dəfnində oxşar hallar tez-tez yaşanır.

**Sosial media hesabında bu mövzuya toxunan Mətbuat Şurasının sədri Rəşad Məcid mediaya çağırış edib:**

- Media subyektləri, jurnalistlər və populyar sosial şəbəkə istifadəçiləri insanların iztirabının, ağır durumlarının əks olunduğu foto və video görüntülərin paylaşılmasına həssas yanaşmalıdırlar. Bu zaman təqdimatın nə dərəcə ictimai əhəmiyyət daşıdığını ciddi şəkildə nəzərə almalıdırlar. Hətta ictimai əhəmiyyət daşıyan hadisələrdə belə, ayrı-ayrı mənəvi detallara diqqət yetirilməsi son dərəcə vacibdir. Xüsusən də uşaqlarla bağlı məqamlara.

Lakin aprelin 11-də Ermənistanın təxribatı nəticəsində şəhid olmuş hərbçilərimizdən birinin dəfn mərasimindən çəkilmiş bəzi fotolarda həssas yanaşmanın şahidi olmadıq. Bu baxımdan şəhid övladının çəkdiyi əzabın və acının görüntülənərək yayılması halları ayrıca vurğulanmalıdır.

Burada mübahisə predmeti kimi iki məsələ üzərində dayanmaq mümkündür. Birincisi, azyaşlının ağır emossional durumunun təsvirinin yolverilməzliyi, ikincisi, cəmiyyətdə ruh düşkünlüyünün, bədbinliyin formalaşmasını doğuracaq təmayülün qabardılması.

Nəzərə alınmalıdır ki, hər iki xüsus Azərbaycan qanunvericiliyi ilə də mübahisələndirilə, müvafiq mexanizmlərin dövriyyəyə girməsinə əsas formalaşdıra bilər. Belə olduqda isə konkret şəxslər, o cümlədən, jurnalistlər üçün hüquqi məsuliyyət perspektivinin reallığa çevrilməsi mümkünləşər ki, bu isə arzuolunmazdır. Əlbəttə, daha arzuolunmaz məqam həm də mənəvi məsuliyyətin ön plana çıxmasıdır.

Azərbaycan Mətbuat Şurası media orqanlarını, jurnalistləri, eləcə də özünü cəmiyyətə informasiya verilməsində məsul sayan hər kəsi, habelə sosial şəbəkə istifadəçilərini diqqətə çatdırdığımız görüntüyə bənzər təqdimatların yayımlanmasına həssas yanaşmağa, onların cəmiyyətdə doğura biləcəyi neqativ reaksiyaları, mümkün mənəvi və hüquqi məsuliyyət məsələlərini əvvəlcədən düşünməyə çağırır.



### *Sosioloq: "TV və saytlar qarşısında konkret tələblər qoyulmalıdır ki, dəfn zamanı uşaqlarla bağlı hansı məqamları işıqlandırmaq olar, hansıları olmaz"*

**Sosioloq Aynur Hacıyeva ”Şərq”ə açıqlamasında R.Məcidin iradlarına haqq verib.**

Onun sözlərinə görə, şəhidlərimizin dəfnində medianın iştirakı və çəkilişlərin olması normal haldır. Onlarla vida mərasmlərinin ictimaiyyətə göstərilməsi, təbliğ olunması təqdirəlayiq haldır: ”Şəhidlərə diqqət və rəğbətin göstəricisidir. Amma dəfndə çəkilən kadrların süzgəcdən keçirilib ictimaiyyətə yayımlanması daha məqsədəuyğundur. Hansısa bir jurnalistin bilərəkdən, ya da bilməyərəkdən çəkib paylaşdığı sarsıdıcı fotonun digər səhifələr tərəfindən reklam və İP məqsədi ilə tirajlanması düzgün deyil. Hüquqi formada bunun qarşısı alınmalıdır. TV və saytlar qarşısında konkret tələblər qoyulmalıdır ki, dəfn zamanı uşaqlarla bağlı hansı məqamları işıqlandırmaq olar, hansıları olmaz. Ola bilsin ki, bu paylaşımı edənlər bu cür fotoların şəhid uşaqlarına və cəmiyyətə necə mənfi təsir etdiyinin fərqində belə deyil. Sadəcə, izləyici toplamaq, daha çox oxucu auditoriyası toplamaq üçün bu cür ağlayan, boynunu bükən uşaqların şəkillərini çəkirlər. İnsanların şəhidlərə sevgisindən sui-istifadə edirlər. Amma hər kəsin psixoloji durumu sağlam deyil axı! Bu cür ağrılı fotolar həssas insanlarda çox dərin travmalar və psixoloji sarsıntılar yarada bilir. Nəzərə almaq laızmdır ki, bu fotoları şəhid ailələri, hərbçi ailələri izləyir. Bu cür fotoları tirajlamaq şəhid övladlarının həmin an çəkdiyi ağrı-acını təkrar-təkrar xatırlatmaqdan başqa bir işə yaramır. Dəfn mərasimi bir dəfə olur və zaman keçdikcə şəhid ailələrinin də acısı köhnəlir, kədəri azalır. Bir müddət sonra dəfnlə bağlı görüntülər insanların yaddaşından silinir və əvvəlki kimi dəhşətli acı hiss etmirlər. Amma sosial şəbəkələrdə, xəbərlərdə bu fotoları görən o uşaqlar hər baxanda o anı xatırlayır və eyni acını təkrar yaşamalı olur. Bu isə onlarda artıq psixoloji ravma yaradır və kədəri unudub uşaqlıqlarını yaşamasına imkan vermir. Mütləq bu paylaşımlarla bağlı sərt tələb qoyulmalıdır. Əslində heç bir hüquqi öhdəlik olmasa da, bu fotoları çəkib paylaşan insanlar özləri bunun mənəvi-psixoloji təsirini düşünməlidir. Görünür, bəziləri üçün reytinq insanlıqdan daha önəmlidir. Bu səbəbdən də mütləq şəhid dəfnlərində çəkilən kadrlarla bağlı media nümayəndələri qarşısında ciddi öhdəlik qoyulmalıdır ki, məsuliyyətli olsunlar”.

*Uşaqların dəfn mərasimlərində iştirakının onların psixologiyasına mənfi təsir etdiyini vurğulayan sosioloqun sözlərinə görə, şəhid övladlarını dəfn mərasimlərinə aparan zaman yaş fərqi mütləq diqqətə alınmalıdır:* ”Körpələr dəfn və yas mərasimlərindən mümkün qədər kənar saxlanmalıdır. Ətrafda nə baş verdiyini anlamayan uşaqlar üçün dəfn və yas mərasimi daha çox neqativ duyğular yaradır. Şəhidlər bizim həssas məsələmiz olduğu üçün bununla bağlı ailələrə nəsə demək də olmaz. Hər halda bu, onların qərarıdır. Kənardan kiminsə nəsə deməsi xoş qarşılanmaya bilər. Amma bir sosioloq olaraq 15-16 yaşa qədər olan uşaqların dəfn mərasimində iştirakını məqbul saymıram. 10 yaşından aşağı uşaqlar bəzi hallarda nə baş verdiyinin fərqinə belə varmırlar. Onun beynində sadəcə görüntü qalır və böyüdükcə travmaya çevrilir”.

**Şəymən**

# Qan uyğunsuzluğu...

## Körpənin sağlamlığına əhəmiyyətli dərəcədə təsir edir

**Ana və atanın qan qruplarında uyğunsuzluq olduqda, ana namizədi və körpə üçün bəzi arzuolunmaz vəziyyətlərin başvermə ehtimalı artır. Rh uyğunsuzluğu ən çox rast gəlinən qan uyğunsuzluğudur. Ananın qan qrupunun Rh mənfi (-) və atanın qan qrupunun RH müsbət (+) olduğu hallarda körpə 75 faiz ehtimalla Rh + qan qrupuna sahib olacaqdır. Bu qan qrupunda olan ana ilə körpə, yəni qırmızı qan hüceyrələrində Rh zülalını daşıyan körpə arasında qan uyğunsuzluğu ola bilər.**



*“Ailəni planlaşdırarkən valideynlərin qan qrupu uyğunluğu testlərindən keçmələri vacibdir”*

Bu vəziyyət ana namizədinin həssaslığına səbəb ola bilər. Yəni ananın orqanizmi bu zülalı yad kimi qəbul edib, antikor istehsal edib, onu məhv etməyə cəhd edə bilər.

Əmələ gələn anticisimlər körpənin bətnində olan qırmızı qan hüceyrələrinə hücum etdikdə ciddi problemlər yarada bilər.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, immunoloq Reyhan Tağızadənin sözlərinə görə, ailəni planlaşdırarkən valideynlərin qan qrupu uyğunluğu testlərindən keçmələri vacibdir.**

Qan uyğunsuzluğunun körpə sağlamlığına əhəmiyyətli dərəcədə təsir edən amillərdən biri olduğunu vurğulayan immunoloq bildirib ki, bu vəziyyət nəticəsində körpəmizdə sarılıq, beyin zədələnməsi, ürək çatışmazlığı kimi ciddi problemlər müşahidə edilə bilər:

”Hamiləlik hər bir qadının həyatındakı ən gözəl dövrlərindən biridir. Bu, həyəcanlı gözləmə, xoş çətinliklər və dölün sağlamlığı ilə bağlı narahatlıqlar dövrüdür: ”Təyin edilmiş tədqiqatların siyahısına hər iki tərəfin qan qrupunu və Rh mənsubiyyətini təyin etmək üçün analiz daxildir. Əgər əvvəllər həkimlər əsasən ana və uşaq arasında Rh konfliktinə səbəb ola biləcək Rh faktoru ilə maraqlanırdılarsa, indi onların vəzifələrindən biri qan qruplarında immunoloji konflikt risklərini minimuma endirməkdir”.

R.Tağızadə deyib ki, ana və körpənin qan qrupları fərqli olduqda qan qrupunun uyğunsuzluğu və ya AB0 konflikti baş verir: ”Bu, bir uşağın doğulması prosesində ciddi fəsadlara səbəb ola bilər, fetal orqanların formalaşmasını və yenidoğanın hemolitik xəstəliyinin görünüşünü ləngidə bilər. Uyğunsuzluğu yalnız qrup anticisimləri üçün testdən sonra müəyyən etmək mümkündür.

AB0 sistemində immunoloji konflikt nəzəri olaraq ana və körpənin müxtəlif qan qruplarına malik olduqda yarana bilər, yəni ana I və ya III qrupa, uşaq II qrupa malikdir, yaxud da ana I və ya II, körpə - III, anada I, II və ya III qrup, uşaqda IV qrup var.

Ən təhlükəli vəziyyət - anada I qrup, uşaqda isə II və ya III qrupdur və bu ən çox konfliktə və körpədə hemolitik xəstəliyin inkişafına səbəb ola bilər. Qeyd etmək lazımdır ki, I qrupu olan qadınlarda Rh faktorundan asılı olmayaraq, uyğunluğa nail olmaq ən çətindir. Yeganə optimal variant, ata və dölün də I qrupa sahib olmasıdır. Bir atanın fərqli bir qrupu varsa, immunoloji konfliktin inkişaf riski artır. Risk qrupuna daxil olan qadınlara qan köçürənlər, abort edənlər, artıq hemolitik xəstəliyi və ya əqli inkişafdan qalan uşaqları olanlar aiddir.

Hamiləlik dövründə və uşaq doğulduqdan sonra ödəm, dərinin sarılığı, anemiya, qaraciyər və dalağın ölçüsünün artması ilə dölün hemolitik xəstəliyinin inkişafı, fetal hipoksiya, göbək ciyəsinin və plasentanın qalınlaşması, uşaqda ürək-damar sisteminin pozulması, fiziki və zehni inkişafın gecikməsi kimi fəsadlar özünü göstərir. Rezus konfliktinin ağırlaşmaları isə uşaqlıqdaxili fetal ölüm, hamiləliyin sonlanma riski, ölü doğum və yeni doğulmuş uşağın hemolitik xəstəliyinə səbəb olur”.

**Uşağın RH faktorunu daha çox hansı valideyndən almasına gəldikdə isə immunoloq deyib ki, hər iki valideyn Rh müsbətdirsə, onda uşaq müsbət rezuslu olur:** ”Hər iki valideyn mənfi olarsa - uşaq əksər hallarda mənfi rezuslu olur. Valideynlərdən biri Rh-müsbət, digəri isə mənfi Rh-dirsə, o zaman körpənin Rh-si müsbət və ya mənfi olma ehtimalı 50/50-yə qədər müəyyən edilir.

Bir neçə nəsildən sonra rezusun irsən ötürülmə ehtimalı var (ata və ananın müsbət Rh, doğulan uşağın isə mənfi Rh olması halı). Buna görə, bir ailəni planlaşdırarkən, valideynlərin qan qrupu uyğunluğu testlərindən keçmələri vacibdir. Mənfi qan qruplarını və Rh faktorunu müəyyən etmək lazımdır. Rezus (Rh) mənfi qan mənsubiyyəti olan qadınlar daha yüksək risk altındadır.

Məsələ burasındadır ki, əgər qadın hamiləlikdən əvvəl cərrahi əməliyyat (abort da daxil olmaqla) və ya qanköçürmə əməliyyatı keçiribsə və ya hamiləlik birinci deyilsə, o zaman onun qanında spesifik anticisimlərin əmələ gəlməsi ehtimalı var. Rh-müsbət döllü Rh-mənfi qadında immun ağırlaşmalar (yeni doğulmuş uşağın hemolitik xəstəliyi və s.) və xüsusilə ikinci və ya üçüncü hamiləlikdən mümkündür. Fəsadların qarşısını almaq üçün antirezus qammaqlobulin tətbiq olunur. Bundan əlavə, zamanla Rh anticisimləri üçün qanı mütəmadi olaraq yoxlamaq lazımdır”.

**Şəymən**





## “Nar" eşitmə məhdudiyyətli insanlar üçün yeni iş imkanları yaradır

**Nitq və eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasına xüsusi önəm verən ”Nar”, ”Təlim Məktəbi” layihəsi çərçivəsində 20 xanıma manikür peşəsi üzrə təlimlər təşkil edib.**

Təlimləri uğurla başa çatdıran xanımlar peşə üzrə sertifikatlarla təmin olunub, eyni zamanda mobil operator onlara öz kiçik bizneslərinə başlamaq üçün lazımi manikür avadanlığı dəstləri də hədiyyə edib. Layihənin əsas məqsədi də məhz iştirakçıların maliyyə azadlığını təmin etmək və onları öz ayaqları üzərində dura bilən fərdlər olaraq cəmiyyətə qazandırmaqdır.

Əksər iştirakçılar artıq bu sahə üzrə əmək fəaliyyətinə də başlayıblar. Bu müsbət tendensiyanın cəmiyyətə faydasına diqqət çəkən ”Nar”ın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Əziz Axundov bildirib:”Mobil operator olaraq, əsas məqsədimiz insanların daima ünisyyətdə qalmalarına dəstək olmaqdır. Bu baxımdan eşitmə və nitq məhdudiyyəti olan insanlara dəstək Korporativ Sosial Məsuliyyət strategiyamızın əsas hissəni təşkil edir. Uzun illərdir ki, Nar bu insanların yeni peşələrə sahib olmaları, yeni biliklərin əldə edilməsi və əlbəttə ki, maliyyə azadlıqlarının təmin edilməsi üçün önəmli addımlar atır. Bu layihələri hər zaman davam etdirmək fikrindəyik”.

”Təlim Məktəbi” ”Eventiada IPRA Golden World Awards” (Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası Qızıl Dünya Mükafatı) müsabiqəsində ”Ən yaxşı sosial layihə” nominasiyasında qalib olub. Mobil operatorun gerçəkləşdirdiyi digər sosial layihələr barədə ətraflı buradan məlumat əldə edə bilərsiniz.



# Mehriban Zəkinin ağrıları var

## Dilarə Əliyeva isə çətin də olsa, özünə gəlir

**”SOY” prodakşnın rəhbəri Oqtay Əliyevin həlak olduğu yol qəzasında yaralanan Xalq artisti Mehriban Zəki və Əməkdar artist Dilarə Əliyevadan xəbər var.**

Onların səhhəti və hazırkı psixoloji vəziyyətləri ilə bağlı D.Əliyevanın qardaşı Vüsal Murtuzəliyev ”Şərq”ə açıqlama verib.

**Aktyor deyib ki, M.Zəkinin sınıqları səbəbilə bir az ağrıları var:** ”Mehriban xanımla, demək olar, hər gün danışıram. Bir balaca ağrıları var. Yavaş-yavaş düzəlir. Təbii ki, sınıqlarına görə ağrıları da olur. İnşallah, yaxşı olacaq. Dilarə çətin də olsa, özünə gəlir. Özünü ələ almalıdır. Ona görə toparlanır. Bu qədər işlər var. Həm Oqtayın işlərini davam etdirmək lazımdır. Həm də özünün işləri qalıb. Hələ ki efirə çıxmır, seriala da çəkilmir. Yəqin ki, Oqtayın 40 mərasimindən sonra yavaş-yavaş başlayacaq”.

**Samirə**

# "Sədrlik yox, səlahiyyətlərin icrası mənə tapşırılıb"

## Hacı İsmayılov: “İşçilərə maaş vermək lazımdır, Azər müəllimdən sonra bank hesabı dondurulub”

**13 aprel 2023-cü il tarixində Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin iclası keçirilib. İclasda Xalq artisti Azər Paşa Nemətovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sənətkarın şəxsiyyətindən, sənətindən, Azərbaycan mədəniyyətindəki, o cümlədən teatr sənətindəki əvəzolunmaz yerindən danışılıb.**



Sonra sədrin vəzifə səlahiyyətlərinin icrası barədə məsələ müzakirə edilib. İdarə Heyəti üzvlərinin yekdil qərarı ilə Azərbaycan Teatr Xadimləri İttifaqının növbəti Konfransına qədər İttifaq sədrinin səlahiyyətləri sədr müavini Xalq artisti, Dövlət mükafatı laureatı, ”Şöhrət” ordenli Hacı Məcid oğlu İsmayılova verilib.

**”Şərq” Xalq artistinin özü ilə əlaqə saxlayaraq bundan sonra görüləcək işlərlə bağlı həmsöhbət olub. Aktyor bildirib ki, sədrin səlahiyyətlərini növbəti ilə qədər icra edəcək:** ”Porseslər hələ yeni başlayır. Əlimizdə olan tədbirləri etməliyik. Ümummilli Liderin 100 illiyinə həsr olunmuş bədii qiraət müsabiqəsi elan edilmişdi. Qərara almışdıq ki, mayın 10-na qədər bədii qiraət müsabiqəsini yekunlaşdıraq, tədbir keçirilsin. Hazırda onunla məşğuluq. Mayın 3-ü və 5-i birinci, ikinci tur keçiriləcək, sonda isə mükafatlandırma olacaq. Hələlik bu işləri yerinə yetiririk. Bir də bizim maliyyə məsələlərində çətinliklər əmələ gəlib. Çünki sənədlər və imza dəyişməldir. Hər işi yoluna qoymalıyıq. İşçilərə də maaş vermək lazımdır. Başqa işlərə görə maliyyə olmalıdır. Azər müəllimdən sonra bank hesabı dondurulub. Onu da yenidən bərpa etməliyik.

Belədir ki, nizamnamə var. Orada qeyd edilir ki, sədrin vəzifələri müvəqqəti olaraq müavininə verilir. O da ancaq İdarə Heyətinin qərarına əsasən olmalıdır. Sədr isə 5 ildən bir seçilir. O da 2024-cü ildə olacaq. Həmin vaxta qədər sədrin vəzifəsini icarə edəcəyəm. Sədrlik yox, onun səlahiyyətlərinin müvəqqəti icrası mənə tapşırılıb”.

**Xalq artisti Azərbaycan Akademik Milli Dram Teatrının baş direktor vəzifəsi ilə bağlı aparılan müzakirələrə də münasibət bildirib:** ”Bu, elə bir məsələdir ki, hansısa aktyordan və təşkilatdan asılı deyil. Bunun üçün Mədəniyyət Nazirliyi və Nazirlər Kabineti var, Humanitar şöbə mövcuddur. Bu məsələni onlar həll edirlər. Elə bir məsələ deyil ki, kimi gəldi, təyin edəsən. Dövlət tərəfindən təyin olunmalıdır”.

**Samirə Ərəblinskaya**

**Elanlar**

”Similar Construction” MMC-yə məxsus VÖEN 1306221541 möhür itdiyi üçün etibarsız sayılır.

”Solve qrup” MMC-yə məxsus VÖEN 1306221541 möhür itdiyi üçün etibarsız sayılır.

**Elan**

Açıq hərrac: Hərracı keçirən ”Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 25.04.2023-cü il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 15/01 LOT üzrə Həsənov Dilafət Yusif oğluna məxsus Ağcabədi rayonu Şərəfxanlı kəndində yerləşən 0,08 ha torpaq sahəsi satış qiyməti - 4400 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: ”Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az; https://www.facebook.com/

# "Jurnalistlər məni boğaza yığıblar"

## Aftandil İsrafilovun qızı açıqlama vermək istəmir



**Xalq artisti Aftandil İsrafilovun vəziyyəti ağırdır.**

Bu barədə ”Şərq”ə sənətçinin qızı Həcər İsrafilova məlumat verib. O bildirib ki, atasının səhhəti ilə bağlı heç bir jurnalistə açıqlama vermək istəmir: H.İsrafilova bəzi media nümayəndələrinin ünvanına ağır ifadələr səsləndirib: ”Söz verdim ki, kimsəyə müsahibə verməyəcəyəm. Çünki qeyri-peşəkar jurnalistlər məni boğaza yığıblar. Bu məsələni də qaldıracam, jurnalistləri test etsinlər”.

*Xatırladaq ki, Aftandil İsrafilov ötən ilin noyabrında səhhəti ilə bağlı xəstəxanaya yerləşdirilib. Bir müddət sonra evə buraxılıb, müalicəsi evdə davam etdirilib. O, martın 27-də yenidən xəstəxanaya yerləşdirilib.*

**Samirə**

# “Yasa gələn qadınlar niyə ful makiyaj edirlər?!"

## Əməkdar artistin paylaşımı müzakirə yaradıb

**Əməkdar artist Nigar Şabanovanın növbəti paylaşımı müzakirə yaradıb.**



”Şərq” xəbər verir ki, o, yasa makiyajla gedən xanımları sərt tənqid edib. İnstaqramda status yazan xanəndə bu sözləri qeyd edib:

”Çox maraqlıdır, yas mərasiminə gələn qadınlar, qızlar niyə ful makiyaj edirlər? Ölüyəmi sevinirlər, yasın keçirilməyinəmi? Öz əzizləri ölsə, görəsən, belə makiyajla gələnə necə baxarlar? Necə qəbul edərlər? Allah hamıya vicdan, iman, qorxu hiss etməyi nəsib etsin. Allah hamının ölənlərinə rəhmət eləsin”.

**Samirə**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 944



## Dünyanın ən qoca qorillasının 66 yaşı tamam oldu

**Berlin zooparkında dünyanın ən qoca qorillasının 66 yaşı tamam oldu.**

Azərtac xəbər verir ki, bu barədə məlumat Berlin zooparkının instaqram səhifəsində yer alıb.

Fatou adlı bu qorillanın qarşısına üzərində "66" rəqəmi yazılmış meyvə və giləmeyvə səbəti qoyulub.

*Qeyd edək ki, qorillalar adətən 35-50 il yaşayır. 2017-ci ildə ABŞ-ın Ohayo ştatının Kolumbus şəhərindəki zooparkda ən qoca qorilla 60 yaşında ölüb.*

## "Ölmək istədim, ölsün istədim..."

### Hadisə 5 ay çəkən evlilikdən və boşanmasından danışdı



**Türkiyənin pop "ulduzu" Hadisənin iş adamı Mehmet Dinçərlə evliliyi sadəcə, 5 ay çəkdi.**

Səssiz-sədasız evlənən cütlüyün ayrılması isə hay-küylü olub. "Milliyet.com.tr" xəbər verir ki, Hadisə keçmiş həyat yoldaşı M.Dinçərlə ayrılmasını mahnı ilə ifadə edib. Sözləri Şeyx Ree, bəstəsi Təkin Akbala məxsus yeni mahnı "Fəryad" adlanır. Və bu mahnıyla Hadisənin keçmiş ərinə mesaj göndərdiyi deyilir. Evlilikdən əvvəl və Çırağan Sarayında keçirilən toy mərasimindən sonra sevgi dolu fotolar paylaşan cütlüyün xoşbəxtliyi niyə 5 ay çəkdi? Hadisənin bu mahnısıyla əslində sıxıntılı bir evlilik yaşadığı məlum olur. Pop "ulduz" mahnısında o günləri anladıb. 37 yaşlı müğənni instaqram hesabında bunları yazıb: "Dəfələrlə inandım, dəfələrlə yanıldım. Ölmək istədim, ölsün istədim. Qəlbimi yerindən söküb atmaq istədim". Hadisə deyib ki, bu mahnıya qədər səssis fəryad edib. Duyan onu anlamayıb, anlaya bilən də duymayıb. Hər dəfə bağıra-bağıra fəryad etmək istəyib. Bu mahnını dinlədikdə isə "bu, mənimlə birlikdə səssiz bağırtıları olan hər kəsin fəryadı olsun", istəyib. Bu mahnı səssiz fəryad edənlərin mahnısı olacaq. Mahnıya çəkilən klipə isə 1 milyon TL vəsait xərclənib.

**Məlahət**



# İndiyədək bilinmirdi

## Minlərlə uşağa yeni diaqnoz qoyuldu, 60 genetik xəstəlik aşkarlanıb

**İngiltərə və İrlandiyada aparılmış tibbi tədqiqat sayəsində yeni genetik xəstəliklər müəyyən edilib. Tədqiqat çərçivəsində DNT analizləri alınmış uşaqlara yeni dianozlar qoyulub. Tədqiqatçılar 60 yeni genetik xəstəlik aşkarlayıb. "Milliyet.com.tr" BBC "Türkcə"yə istinadən bildirir ki, tədqiqatçılar inkişafda ciddi problemləri olan uşaqların və onların valideynlərinin DNT analizləri üzərində çalışıb. Nəticələrə görə, uşaqların normal inkişafdan geri qalması xeyli sayda fərqli, indiyədək bilinməyən genetik xəstəliklər səbəbindəndir.**

Diaqnozların qoyulması uşaqların müalicəsinə kömək edə bilər, eyni zamanda valideynlərin də övlad sahibi olmaq imkanlarını dəqiq göstərəcək. Genetik xəstəliklər arasında nadir rast gəlinənlərlə yanaşı, daha tez-tez rast gəlinənlər də var. İngiltərədə hər 17 nəfərdən birində genetik xəstəliklərin olması müəyyən edilib. Yeni müəyyən edilmiş xəstəliklər sırasında "Turnpenny-Fry" sindromuna rast gəlinir. Bu sindrom DNT-dəki genetik təlimatda meydana gələn qüsurlardan qaynaqlanır və qavrama qabiliyyətinin zəif inkişafına səbəb olur. Bu sindromla doğulanlarda fiziki baxımdan da müəyyən qüsurlar yaranır: alınları çox geniş, saçları seyrək olur. Tədqiqatçılardan biri Cessica Fişerın övladı Mungo da tədqiqata cəlb edilmiş uşaqlar arasındadır. Mungoya da bu sindrom diaqnozu qoyulub. Mungo buvaxtadək "Turnpenny-Fry" sindromu diaqnozu qoyulmuş 2 uşaqdan biri olub. Onun "bənzəri" isə Avstraliyada yaşayır. Onlar bir-birinə həddindən artıq bənzəyirlər. Cessica tədqiqatın miqyasını böyütmək üçün Amerika, Brazilya, Xorvatiya, və İndoneziya da daxil, dünyanın dörd bir yanından 36 ailədən ibarət onlayn dəstək qrupu formalaşdırıb: "Övladının nadir rast gəlinən genetik xəstəliyə tutulduğunu öyrənmək çox üzücüdür. Lakin diaqnoz qoyulması onun kimi digər uşaqların və onların ailələrini bir araya gətirmək üçün açar rolunu oynayır" söyləyən Cessica bildirib ki, tədqiqat nəticəsində indiyədək səbəbi bilinməyən zehni və fiziki qüsurlu 13 min 500 ailənin genetik kodu analiz edilib, bunlardan 5 min 500-nə diaqnoz qoyulub. "New England Journal of Medicine" dərgisində yayımlanan nəticələrə görə, mövcud qüsurlar 60 yeni genetik xəstəlikdən qaynaqlanır. Bunların bəzisi hamiləlik dövründə əmələ gəlmiş qüsurlardır. "Exeter" Universitetinin professoru Carolin Vriqt tədqiqatla bağlı bunları deyib: "Yeni genetik xəstəliklər müəyyən etməyi bacardıq. Gələcək nəsillər bunun faydasını görəcək!.."



**Məlahət**

## Rihanna 21 milyona yeni mülk aldı



**Məşhur müğənni Rihanna Los-Ancelesin mərkəzində penthaus (binanın, hotelin və ya qüllənin ən yüksək mərtəbəsində yerləşən mənzil) alıb.**

**Axşam.az xəbər verir ki, penthaus Los-Ancelesdə, göydələnin 40-cı mərtəbəsində yerləşir və əvvəllər aktyor Metyu Perriyə məxsus olub.**

**Rihanna dörd yataq, altı vanna otağı, kinoteatr, oyun zonası, spa mərkəzi olan penthausu 21 milyon dollara satın alıb.**

***Qeyd edək ki, Rihanna reper Eysap Roki (Rakim Mayers) ilə nişanlıdır. Cütlüyün bir oğlu var. Müğənni hazırda ikinci övladına hamilədir.***

## Ledi Qaqaya Ağ Evdə vəzifə verildi



**Məşhur amerikalı müğənni Ledi Qaqaya Ağ Evdə vəzifə verilib.**

**Axşam.az xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb. ABŞ prezidenti Co Bayden ifaçını Mədəniyyət və İncəsənət üzrə Prezident Komitəsinin həmsədri vəzifəsinə təyin edib.**

**Bildirilib ki, 13 Qremmi mükafatı olan Ledi Qaqa bu vəzifəyə ən layiqli namizəddir.**

***Qeyd edək ki, müğənni "Forbes" jurnalı tərəfindən dünyanın ən nüfuzlu qadınları və "Time" jurnalının dərc etdiyi dünyanın 100 ən nüfuzlu insanı siyahısına daxil edilib. O, seçki kampaniyası zamanı Co Baydenə fəal dəstək verib və andiçmə mərasimində ABŞ Himnini səsləndirib.***

## 50 milyonluq malikanə

### Məşhur aktyor sevgilisi ilə burada yaşayacaq



**Məşhur aktyor 50 milyonluq malikanəsində sevgilisi ilə yaşayacaq**

**Məşhur aktyor Kerem Bürsin yeni aldığı malikanəsi ilə gündəmə gəlib.**

**Lent.az bildirir ki, aktyor yeni evini 50 milyon lirəyə alıb.**

**Türkiyənin Beykoz konakları massivində yerləşən bu gözəl evin dəniz mənzərəsi, böyük torpaq sahəsi var. Aktyor yeni evində sosial media fenomeni olan sevgilisi Mehtap Algül ilə birlikdə yaşayacaq.**



# 4 yaşlı uşaq çirkab suda boğulub

## Vətəndaşların tələblərinə səhlənkar yanaşan tikinti şirkəti məhkəməyə verildi

**İstanbulun Sultanbəyli səmtindəki Yavuz Səlim məhəlləsində aparılan inşaat işləri zamanı çirkab suların toplandığı çuxurdan körpə meyiti tapılıb. Araşdırmalar zamanı məlum olub ki, çuxurdan çıxarılan meyit 4 yaşlı Adəm Kavçinə məxsusdur. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, sözügedən ərazidəki inşaat işləri 3 ay əvvəl dayandırılıb.**

İnşaat işləri zamanı hörülmüş istinad divarının önündə isə böyük çuxur yaranıb. Ətrafda yaşayanlar tikinti şirkətindən çuxurun bağlanmasını tələb etsələr də, onların şikayətinə məhəl qoyulmayıb. Zamanla yağış suları çuxura dolub. Valideynlərinin iddiasına görə, 4 yaşlı Adəm küçədə oynayarkən yağış suyu ilə dolu çuxura düşərək boğulub. Körpənin atası Erhan Kavçin bildirib ki, iftar saatı yaxınlaşdığında küçəyə çıxaraq oğlunu səsləyib, uşaq səs verməyincə, axtarışlara başlanılıb. Nəhayət, Adəmin cansız bədəni su dolu çuxurda tapılıb. Uşağın meyiti tibbi ekspertizaya aparılıb və onun boğularaq öldüyü təsdiqlənib. Kavçin ailəsi tikinti şirkətini insanların həyatına təhlükə yaratdığı üçün məhkəmə verib. Körpənin dayısı da "bu çuxur hələ də qapanmayıb. Bizim ürəyimiz yandı, başqa kimsənin də ürəyi yanmasın. Bu səhlənkarlıq, təhlükəni görməzdən gəlməkdir. Tədbir görülməlidir", deyib.



**Məlahət**

## Super-qida elan edildi

### Bağırsaqları qoruyur, xəstəlikləri əngəlləyir



**Tərkibində vitamin və mineralların bolluğu ilə yanaşı antioksidan xüsusiyyəti ilə məşhur olan brokolinin daha bir faydası kəşf edilib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, ABŞ alimləri brokolinin bağırsaq hüceyrələrini xəstəliklərdən qoruduğu elan edib. ABŞ alimləri brokolini "super qida" adlandırıblar. ABŞ-nin Pensilvaniya ştatı Əyalət Universitetində aparılmış tədqiqat brokolinin insan sağlamlığını qoruyacaq xüsusiyyətlərə malik olduğunu aşkarlayıb. Brokolinin tərkibindəki vitaminlər, minerallar nazik bağırsağı zərərli bakteriyalardan qoruyur, onun düzgün çalışmasını təmin edir. Tədqiqat siçanlar üzərində aparılıb, gündəlik qidanın 15 faizinin brokoli təşkil etdiyi bağırsaq hüceyrələri analiz edilib. Məlum olub ki, brokolinin tərkibindəki minerallar nazik bağırsaq hüceyrələrindəki "aril hidrokarbon reseptorları" ilə birləşərək bu hüceyrələri gücləndirir. Bu vəziyyət bağırsaq xəstəliklərinin qarşısını almağa kömək edir. Turpkimilər fəsiləsindən olan tərəvəzlərin tərkibindəki maddələr hüceyrələri DNT zədələnməsindən qoruya bilir, virus, bakteriya və iltihaba qarşı qoruyucu xüsusiyyətə malikdir. Brokoli ilə yanaşı gül kələmi (dəniz kələmi), brüssel kələmi - kahının bütün növləri, araqula (vəzəriyə oxşayan tərəvəz), şalğam və turp kimi tərəvəzlər bu xüsusiyyətləri daşıyır və onlar qidalanmada əsas yer tutmalıdır.

**Məlahət**

## Çoxmərtəbəli binalar insan nəslini kəsmək üçün tikilib



**İnsan nəslinin kəsilməsinə bir sıra faktorlar təsir edir.**

**Müharibələr, viruslar, xəstəliklər və.s bir nəslin kəsilməsində böyük rol oynayır.**

"Medicina" xəbər verir ki, hələ 1944 - cü ildə ciddi genetik araşdırmalar aparılmışdır. Məlum olmuşdur ki, çoxmərtəbəli binalar insan nəslin kəsilməsinə, genetik mutasiyaya məruz qoyur.

Çünki, insan övladı təbiətdə böyüməlidir. Nəslin davam etməsində təbiət böyük rol oynayır.

Bina evlərinə döğulan uşaqların gələcək nəsli 1 - 2 nəsil davam edə bilər. Üçüncü və dördüncü nəsli məhv olub gedəcək.

İnsan nəslinin davam etməsi təbii sahələrdən asılıdır. Əgər bu baş vermirsə insanlarda mutasiya baş verir.

Böyük şəhərlər mutagen mühitdir. Təbii mühit insan üçün daha əlverişlidir.

Ona görə insan sayını azaltmaq üçün çoxmərtəbəli binalar aktiv şəkildə artırılır.